

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Görkəmli oftalmoloq-alim, böyük ziyalı - ZƏRİFƏ XANIM ƏLİYEVA



3

SƏS

№ 061 (6986)

7 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan-Türkiyə: birliyimiz və qardaşlığımız daha da güclənir!



2

*Prezident İlham Əliyev: "Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq"*

# Brüsseldən ermənilərə TƏRS SİLLƏ



5

## Ağdaban soyqırımı




7

## Dağıdıcı müxalifət "siyasi məhbus" alverini təzələyir



10

## Ali təhsil, yoxsa peşə təhsili?



10

## Ramazan "Qurani-Kərim"in baharıdır



11

## "Molla Nəsrəddin»i zəmanə özü yaratdı




12

# Azərbaycan-Türkiyə: birliyimiz və qardaşlığımız daha da güclənir!

Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulub. Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

”Bir millət, iki dövlət”, - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul etməsi əlaqələrimizin, dostluğumuzun davamlığına əsaslanır. Dövlətimizin başçısı Mövlud Cavuşoğluya ölkəmizdə böyük hörmət bəsləndiyini vurğulayaraq, onun bütün dövrlərdə Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirib və xalqımızın bunu çox dəyərləndirdiyini qeyd edib. Prezident İlham Əliyev vurğulayıb ki, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı Mövlud Çavuşoğlu müntəzəm surətdə çox önəmli açıqlamalar verib. O, bütün dünyaya Türkiyənin səsini çatdırıb ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bu açıqlamalar öz növbəsində Azərbaycanın işinə qarışmaq istəyən qüvvələrin qarşısının alınmasında önəmli rol oynayıb.



**Prezident İlham Əliyev: "Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq"**

### ”CƏNUBİ QAFQAZ ÜÇÜN CIZILAN PLAN GƏLƏCƏKDƏ BÖYÜK FƏLAKƏTƏ GƏTİRƏ BİLƏR”

Dövlətimizin başçısı bu gün Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirib ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər. Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. ”Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik”, - deyə vurğulayan Prezident İlham Əliyev bildirib ki, o vaxtdan bugünədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir. Bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçiriləcək üçtərəfli görüşə toxunan dövlətimizin başçısı bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradıldığını diqqətə çatdırıb. Halbuki, son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksək vəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

### ”ERMƏNİSTANI CƏNUBİ QAFQAZDA BİR SİLAHLI FORPOST KİMİ YARATMAQ CƏHDLƏRİ GƏLƏCƏKDƏ ÇOX BÖYÜK FƏSADLAR TÖRƏDƏCƏK”

Dövlətimizin başçısı bir daha qeyd edib ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək. Buna görə, biz bununla bağlı Azərbaycan ABŞ və Avropadakı tərəfdaşlarına xəbərdarlıq etmək üçün açıqlamalar verib.

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirdi.

Prezident İlham Əliyev qeyd edib ki, həqiqətən də Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq. Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: ”İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur.

### MÜTTƏFİQLİK SƏVİYYƏSİNƏ YÜKSƏLƏN MÜNASİBƏT

Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir.” Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: ”Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, ”Bir millət iki dövlət” şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir”. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk”. Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsini Vətən müharibəsində bir daha şahidi olduq.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə – müttəfiqlik səviyyəsinə yüksəldilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturu”nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1107-VIQ nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# DW nəşri Avropanın hesablaşmağa məcbur olduğu Bakının rolunu qeyd edib

“Alman dalğası” (DW) erməni cəmiyyətinin Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan, ABŞ-ın Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin iştirakı ilə keçirilən görüşdən məyus olması və həmin görüşün yekunları haqqında material dərc edib. Məqalədə Ermənistanda bir çoxlarının bu görüşə böyük ümidlər bəsləməsi və onu “ölkənin gələcək xarici siyasət kursunu müəyyən edəcək həlledici məqam hesab etməsindən” bəhs olunub.

Alman nəşri yazır ki, aprelin 5-də keçirilən və “Ermənistanda demokratik islahatları və iqtisadi dayanıqlığı dəstəkləmək” məqsədi daşıyan Brüssel görüşü ABŞ və Avropa İttifaqının İrəvana ümumilikdə hansısa 330 milyon avro ayırması ilə yekunlaşıb. Bu xəbər Ermənistanda məyusluqla qarşılanıb, belə ki, bir çoxları bu görüşə böyük ümidlər bəsləyir və onu “ölkənin gələcək xarici siyasət kursunu müəyyən edəcək həlledici məqam hesab edirdi”.

DW daha sonra yazıb: “Brüssel sammitindən əvvəl ABŞ və Avropanın rəsmi şəxslərinin intensiv təmasda olduqları Azərbaycan Prezidenti İlham Əliyev bu görüşün regionda ayırıcı xətlərin yaradılması və Bakının təcrid olunması məqsədi daşıdığını bildirib. Bundan əvvəl Azərbaycan XİN ABŞ və Avropanın ermənipərəst mövqeyinin Ermənistanda Azərbaycanla qarşıdurmada Qərbin dəstəyi ilə bağlı illüziyalar yarada biləcəyindən narahatlığını ifadə edib. Bakını sakitləşdirməyə çalışan ABŞ Dövlət Departamenti əmin edib ki, Paşinyan, Blinken və Fon der Lyayen arasında keçiriləcək görüşdə Ermənistan-Azərbaycan sülh prosesinə toxunulmayacaq və orada islahatlar, demokratiya və Ermənistan iqtisadiyyatı ilə bağlı məsələlər müzakirə olunacaq”.




Məqalədə qeyd olunub: “Digər regional aktorlar, xüsusən də Rusiya və Türkiyə bu görüşün geosiyasi fonu ilə əlaqədar ona tənqidi yanaşdılar. Ankara bəyan etdi ki, Azərbaycanın iştirakı olmadan keçirilən bu görüş tərəflər arasında mürəkkəb problemlərin həlli üçün əsas amil olan neytral yanaşmaya xələl gətirir. Rusiya bu təşəbbüsdə Cənubi Qafqazı geosiyasi rəqabətə cəlb etmək cəhdini gördü ki, bu da Moskva ilə İrəvan arasında onsuz da kəskin ziddiyyətləri daha da gücləndirir”.

# Görkəmli oftalmoloq-alim, böyük ziyalı - ZƏRİFƏ XANIM ƏLİYEVA









***Dünya oftamologiya elminə töhfələrini verən, qeyri-adi peşəkarlığı ilə şöhrətlənən böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə – insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət, geniş qəlb və xeyrxahlıq insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır.***

Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub. Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftamoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyeva alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olaraq qəlblərdə öz abidəsini ucaldıb.

Ulu Öndər Heydər Əliyev Zərifə xanım Əliyeva haqqında xatirələrində yazırdı: "Deyirlər, xoşbəxtlik nisbi anlayışdır və dünyada tam xoşbəxt olan insan yoxdur. Amma Tanrı tərəfindən seçilmiş elə şəxslər də var ki, sağlığında insanların rəğbətini, sevgisini qazanan, bu dünyayla vidalaşandan sonra isə tarixdə özünə əbədi şərəfli ad qoyan xoşbəxt insanlardan olur. Elə o da öz adını tarixin səhifələrində əbədiləşdirən, xatirələrdə hər zaman hörmətlə anılan, sayğı ilə yada salınan unudulmaz şəxsiyyətlərdən oldu. Çünki böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs ilk növbədə özündə ümid, təsəlli, inam, sakitlik tapar, könülləri xeyirxahlıq şəfəqinin şölələri ilə işıqlanardı. O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi".

### HƏYAT FƏLSƏFƏSİ ÇOXCƏHƏTLİ VƏ ZƏNGİN OLAN BÖYÜK ZİYALI

Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı.

Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir. Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi.

Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

### ELMİ ƏSƏRLƏRİN MÜƏLLİFİ

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub.

Ardı Səh. 4

# Görkəmli oftalmoloq-alim, böyük ziyalı - ZƏRİFƏ XANIM ƏLİYEVA





Əvvəli-Səh-3

Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Alim gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

### OFTALMOLOGİYANIN MİRVARİSİ

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər.





Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

### "ZƏRİFƏ XANIM BİR QADIN, BİR HƏYAT YOLDAŞI, BİR ANA, BİR HƏKİM, BİR ALİM, BİR İCTİMAİ XADİM OLARAQ ELƏ SAĞLIĞINDA ƏFSANƏVİLƏŞMƏYİ BACARIB"

Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur. Ulu Öndər Heydər Əliyevin bildirdiyi kimi, Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib.

### NƏSİLLƏR ÜÇÜN ÖRNƏK OLACAQ NÜMUNƏVİ YOL

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

Bildiyimiz kimi, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncamı imzalamışdı. Sərəncama əsasən, ötən il Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər həyata keçirdi.

15 aprel Zərifə xanımın anım günüdür. Zərifə xanım Əliyeva ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişib. 1994-cü ildə Zərifə xanım Əliyevanın cənazəsi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunmuşdur

***Zümrüd BAYRAMOVA***

# Brüsseldən ermənilərə TƏRS SİLLƏ

***Bir müddət idi ki, 5 aprel tarixli Brüssel görüşünün keçiriləcəyi, onun nəticələri ilə bağlı müzakirələr gündəmi zəbt etmişdi və ələlxüsus erməni cəmiyyətində buna görə bərk sevincək olanlar, hətta sevindiyindən çaşqınlıq içərisinə düşənlər də kifayət qədər idi. Guya həmin görüşdən sonra hadisələrin tamamilə başqa bir məcrada dəyişəcəyi iddiasında olan, hətta bu görüşlərlə bağlı əvvəlcədən hamıya hədə kəsən haylar da az deyildi.***

Hər dəfə bir görüş öncəsi hayların öz xislətlərinə uyğun olaraq, xülyalara düşmək ənənələrinə onlar bu dəfə də sadiq qaldılar, amma görüşün nəticələri fonunda üzlərinə vurulan gözlənilməz tərs sillə nəinki məyusluqlarına, hətta bədbinliklərinə də səbəb oldu.

### Hayların bu arzuları da ürəklərində qaldı və daha bir zərbə almış oldular

Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan, dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen arasında üçtərəfli görüş baş tutmazdan əvvəl yaranan mənzərə tamamilə fərqli idi və bunun da səbəbləri var idi. Beləki, məsələn, Rusiya hesab edirdi ki, bu format İrəvanı Moskvadan ayırmağa yönəlmiş açıq cəhddir. Kremlin görüşdən öncəki qiymətləndirməsinə görə, Brüsseldə keçirilməli olan görüşün məqsədi ancaq Ermənistanı birdəfəlik olaraq Rusiyadan ayırmaq və hətta İrəvanı Moskvaya qarşı qoymaq olub. Lakin Brüssel formatının iştirakçılarının özləri bunun başqa ölkələrə qarşı yönəlmədiyini lap əvvəldən bəyan edirdilər. Məsələn, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller qeyd edirdi ki, Brüssel görüşü "Ermənistanda islahatlara, onun demokratiyasına, iqtisadiyyatına və davamlılığına həsr olunub". Bir sözlə, rusların düşündüyünün əksi bildirilirdi, halbuki, haylar özləri də görüşdən əvvəl lovğalanırdılar ki, Brüssel görüşündən sonra yaxaları rusların əlindən xilas olacaq. İş o yerə çatmışdı ki, ermənilər ruslarla aralarında olanın 5 aprel tarixinə qədər yaşayacağını böyük pafosla bildirirdilər. Bəzən erməni cəmiyyətində ruslara qarşı ültimatum dili ilə danışıldığı da müşahidə olunurdu və haylar açıq şəkildə bəyan edirdilər ki, ruslar 5 aprel tarixindən sonra onların yaxalarını buraxmalı olacaqlar və buraxacaqlar. Amma hadisələrin gedişi göstərdi ki, hayların elə bu arzuları da ürəklərində qaldı və istədiklərinə nail ola bilmədiklərində daha bir zərbə almış oldular.

### Bakının regional maraqlarının nəzərə alındığı, Prezidentimizin beynəlxalq münasibətlər sistemindəki siyasi çəkisinin yüksək olduğu göz önündədir

Sözsüz ki, region ölkələri sözügedən görüşə heç də biganə, laqeyid yanaşa bilməzdilər. Çünki regionun bir ölkəsi olan Ermənistanın hansısa bir istiqamətdə regionun təhlükəsizliyinə təhdid olacaq şəkildə dəstəklənməsi heç də qəbulolunan sayılmır. Xüsusən də regionun təhlükəsizliyini təmin edən Azərbaycan belə bir görüşə laqeyid yanaşa, həmin görüşü nəzərə, hesaba almaya bilməzdi. Üstəlik, həmin görüşə Azərbaycanın dəvət olunmaması fonunda rəsmi Bakının haqlı olduğu öz təsdiqini tapırdı. Bunu elə Brüsseldə iştirak edən tərəflər də başa düşürdülər, anlayışla qarşılayırdılar. Təsadüfi deyildi ki, şəxsən Blinken özü belə Azərbaycan Prezidenti cənab İlham Əliyevə zəng etmişdi və bununla bağlı bir növ izahat verirdi. O, öz telefon zəngi və danışığı zamanı ölkə rəhbərimizi əmin etməyə çalışırdı ki, Brüssel görüşü Azərbaycana qarşı yönəlməyib, çünki orada əvvəlcədən Ermənistanın iqtisadi inkişafı məsələlərinin müzakirə olunması planlaşdırılıb. Heç şübhəsiz ki, Amerika dövlət katibinin diplomatik jesti ABŞ-ın Bakının regional maraqlarını nəzərə aldığını və Cənubi Qafqazın aparıcı ölkəsi kimi Azərbaycanla qurulmuş əlaqələrin saxlanmasına sadiq olduğunu, eləcə də bunu açıq şəkildə bəyan etməyə ehtiyac duyduğunu göstərir. Bu həm də Azərbaycan Prezidentinin beynəlxalq münasibətlər sistemindəki siyasi çəkisinin və ölkəmizin regional siyasətdə aparıcı rolunun hansı həddə yüksək olduğunu göstərir, hansıki bu reallıq özü də haylar üçün tərs sillə hesab olunur. Azərbaycanın uğurlarını həzm edə bilməyənlərlə birlikdə ermənilər bu uğurumuzu da görüb hansı hala düşdüklərini təsəvvür etmək çətin deyil.

Sözsüz ki, ölkə rəhbərimizin də öz fikirlərini bildirməsi və işğalçı bir ölkənin dəstəklənməsinin qəbuledilməz olduğunu diqqətə çatdırması, xatırlatması tamamilə yerinə düşən idi və bu təkcə indiki zaman üçün deyil, bundan sonra üçün də bir ciddi mesaj sayılır. Bu mesaj onu özündə ehtiva edir ki, hərhansı bir görüş zamanı işğalçını dəstəkləmək sülhün, təhlükəsizliyin təmin edilməsinə bir təhdid hesab olunur və buna da Azərbaycan laqeyid qala bilməz. Heç şübhəsiz ki, qarşı tərəf bu mesajı çox gözəl anlamış olub və görüş zamanı, görüşdən sonra hadisələrin gedişi zamanı müşahidə edilənlər bunu təsdiq edir. Onu da nəzərə çatdıraq ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller brifinqdə Azərbaycanın bu görüşə dəvət edilib-edilməməsi ilə bağlı sualı cavablandırarkən deyib ki, "sülh prosesi bu görüşün mövzusu deyil. Bu, iqtisadi diversifikasiya, humanitar yardım, qaçqınlara dəstək və Ermənistanın demokratiya və qanunun aliliyi kimi sahələrdə siyasi islahatlarını müzakirə etmək üçün ABŞ, Aİ və Ermənistanın görüşüdür. Bu regional görüş deyil". Bir sözlə, ermənilərin başlarının ağrısının səbəbi bəlli olub. Bəlli olub ki, regional görüş olmadığı bəyan edilməsindən sonra hayların yekə burunları buna görə sallanıbmış. Çünki əvvəlcədən onlar həmin görüşü özlərinin revanş addımlarına start kimi qələmə verirdilər, amma bunun əksini görəndə başlarına daş düşmüş, sifətlərinə də tərsinə bir sillə dəymiş oldu.

### Ermənistana az miqdarda vəsair ayrıldığını biləndən sonra haylar özlərini təhqir olunmuş hesab edirlər

Belə məlum oldu ki, Brüssel görüşündən haylar böyük məbləğdə yardım gözləyirlərmiş. Həmin yardıma da ümid olub ağıllarına gələni edəcəklərini düşünürlərmiş. Amma bu dəfə dişləri daşa dəymiş oldu. Brüssel görüşündən sonra Ermənistana milyardlarla, hətta 10 milyardlarla vəzait ayrılacağına ümid edən haylar onlar üçün cəmi 350 milyon avro ayrıldığını, özü də həmin məbləğin düz 4 il müddətinə qranlar şəklində veriləcəyini biləndə özlərini təhqir olunmuş hesab etməyə başladılar. Həmin məbləği özləri üçün dilənçi payı kimi gördülər. Əlbəttə ki, belə iddia etdikləri bəllidir və haylar elə hesab edirlər ki, Qərbin çaldığı havaya ukraynalılar kimi onlar da oynayırlar deyə onlara da eyni həddə vəsait ayrılmalıdır. Amma bir neçə şeyi başa düşə bilmirlər. Əvvəla, başa düşə bilmirlər ki, Ermənistan Ukrayna deyil və həmin ölkə qədər nə Qərb, nə də Avropa üçün maraqlı ola bilməz. Digər tərəfdən, Ukrayna az qala Avropanın düz ortasında yerləşən ölkədir və məhz Qərbin aləti olduğuna görə artıq illərdir ki, onun ərazisində müharibə gedir, şəhərləri darmadağın edilir, əhalisi qırılır, itgilər verməkdə davam edir, hətta dünya üzündən bu ölkə silinmək təhlükəsi qarşısındadır və həmin ölkəyə nə qədər yardım edilsə də hələ azdır. Bəlkə ermənilər ancaq pul, vəsait müqabilində öz ölkələrinin də Ukraynaya çevrilməsinə razıdırlar? Onsuz da onlara məxsus olmayan ərazilərdən çox pul, vəsait onları maraqlandırır. İş orasındadır ki, hayların belə bir marağa sahib olduqlarını Qərb də, Avropa da yaxşı bilir və istənilən halda hayların məqsədinin onlardan vəsait qoparmaq olduğunun artıq fərqindədirlər. Bunu bilərəkdən haylara ayrılan yardımı azaltmaq özü də bir sillədir ermənilərə. Çünki əvvəlcədən alacaqları vəsaitlərə görə yerə-göyə sığışmayan ermənilər milyardlar gözlədikləri halda, ondan onlara dəfə az vəsait vəd edilməsi tərs sillə sayıla bilər.



bu da səbəbsiz deyil. Ermənilər elə hesab edirdilər ki, Ukraynaya 100 milyardlarla vəsait ayıran Qərb üçün onlara milyardlarla pul ayırmaq elə də çətin olmaz. Əslində, həqiqətən də həmin vəsaitlərin ayrılması Qərb üçün heç də çətin olmazdı, amma sual oluna bilər ki, niyə ayrılmalı idi axı? Ona görə ayrılmalı idi ki, Ermənistan yetərincə silah-sursat alsın və regionda münaqişələr yaratsın? Ona görə ayrılmalı idi ki, heç bir iqtisadiyyat, əməkdaşlıq, layihələr barədə düşünmədən rəsmi İrəvan ölkəni ancaq iyanələr hesabına idarə etsin və heç bir razılığa da gəlməsin? İndi öz yekə burunlarını aşağı sallayan haylar başa düşürlər ki, artıq maliyyə yardımına bel bağlaya, ümid edə bilməyəcəklər və ən azından səfalətdən yaxa qurtarmaq üçün, ölkə iqtisadiyyatı üçün, regional layihələr üçün, əməkdaşlıq üçün səy göstərməlidirlər və bunun üçün də region ölkələri ilə, ələlxüsus da Azərbaycanla razılığa gəlməli, sülh təşəbbüsünə razı olmalıdır. Belə bir çıxılmaz yol qarşısında qalan haylar belə bir vəziyyəti başlarına düşən daş kimi başa düşürlər və elə hesab edirlər ki, Brüsseldən onlara əməlli-başlı sərt bir sillə vuruldu.

Haylara, ümumiyyətlə, Ermənistana nəyə görə yardım edilməlidir və onlara yardım edilməsi marağı ola bilərmi?

Hayların nəyə görə yardıma belə ümid etmələrini də başa düşmək çətindir. Axı Cənubi Qafqazın kiçik bir toplumuna, özü də sonradan məskunlaşdırılmış topluma, müharibədə məğlub olmuş, rəzalət və səfalət içərisində olan, heç bir təbii ehtiyatlara malik olmayan, heç bir ixrac potensialına malik olmayan ölkəyə nəyə görə yardım edilməlidir? Ümumilikdə dünya üçün heç bir maraq kəsb etməyən ölkəyə edilən yardımda hansı maraq ola bilər? Düzdür, ermənilər iddia edirlər ki, əgər Ukraynaya böyük məbləğdə, 10 milyardlarla vəsait ayrılırsa, deməli, Ermənistana da ayrılmalıdır, axı ermənilər də Qərb yönülü olduqlarını açıq-aşkar bəyan edirlər. Sözsüz ki, onların hansı məntiqlə

### Ermənilərə vəsaitin az miqdarda ayrılmasında rəsmi Bakının mövqeyi nəzərə alınıb

Daha bir məqamı diqqətə çatdıraq ki, ermənilərə az miqdarda vəsait ayrılması məsələsində Azərbaycanın nəzərə alındığı da günün reallığıdır. Heç şübhəsiz ki, Ermənistana yardımların edilməsinə qarşı öz etirazını bildirən rəsmi Bakının mövqeyi mütləq şəkildə nəzərə alınıb. Əlbəttə ki, Blinkenin ölkə rəhbərimizə zəng etməsi, görüşün təşkilinin regional məsələlərə, xüsusən də Azərbaycana aid olmadığını bildirməsi ilə yanaşı, haylara az miqdarda vəsait ayrılması rəsmi Bakının nəzərə alındığını, ölkəmizlə hesablaşıldığını göstərən məqamdır. Bu barədə ermənilər arasında spekulyasiyalar dolaşır. İndi Ermənistana məxsus mətbuat səhifələri açıq-aşkar şəkildə yazırlar ki, az miqdarda vəsait almalarında Azərbaycanın da nəzərə alınması əsaslı rol oynayıb. Təsəvvür etmək çətin deyil ki, bunu düşünmək belə erməni cəmiyyəti üçün necə ağrılıdır. Hər halda güvəndiklərinin Azərbaycanı nəzərə alması, Azərbaycanla hesablaşması haylar üçün həzm olunması mümkünsüz olan bir məsələdir. Amma istəyirlər həzm etsinlər, istəyirlər etməsinlər, məsələ burasındadır ki, real vəziyyət budur. Real vəziyyət ölkəmizə, ölkə rəhbərimizə olan sayqını, ölkəmizlə hesablaşıldığını, söz sahibi olduğumuzu göstərir və bu reallıqlar daha bir tərs sillə kimi hayları bərk tutmuş oldu.

***İnam Hacıyev***

# YAP nümayəndələri "Yedinaya Rossiya" partiyasının təşkil etdiyi beynəlxalq tədbirdə iştirak ediblər





***Aprelin 5-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin və Milli Məclisin Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Mixail Zabelin və Azər Badamov "Yedinaya Rossiya" partiyasının təşkilatçılığı ilə ölkənin Kalininqrad şəhərində "XXI əsrdə həqiqi sülhün və etibarlı təhlükəsizliyin təmin edilməsi üçün müxtəlif siyasi sistemlərə malik dövlətlərin dinc yanaşı yaşaması prinsiplərinin əhəmiyyəti haqqında" mövzusunda keçirilən dəyirmi masada iştirak ediblər.***

Görkəmli mütəfəkkir İmmanuel Kantın anadan olmasının 300 illik yubileyinə həsr olunan və 12 ölkədən ictimai-siyasi xadimlərin qatıldığı tədbiri giriş sözü ilə açan "Yedinaya Rossiya" partiyası Ali Şurası Bürosunun üzvü, Rusiya Federal Məclisinin Federasiya Şurasının üzvü Andrey Klimov İ.Kantın siyasi fəlsəfəsinin günümüz üçün əhəmiyyətindən bəhs edib. O, mütəfəkkirin öz əsərlərində irəli sürdüyü müxtəlif siyasi sistemlərə malik dövlətlərin dinc yanaşı yaşaması ideyasının dövlətlərin suverenliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmaqla XXI əsrdə də aktuallıq kəsb etdiyini bildirib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü Mixail Zabelin bildirib ki, yeni dünya nizamı müxtəlif siyasi, sosial quruluşlara malik olan dövlətlərin suveren bərabərhüquqluğu və dinc yanaşı mövcudluğu prinsiplərinə əsaslanmalıdır. Onun sözlərinə görə, xalqların əsrlərdən bəri formalaşmış ənənələrinin, milli dəyərlərinin və sosial strukturunun təhlükə qarşısında qoyulması, etnik, dini, siyasi müstəvilərdə nəzərə çarpan ayırıcı xətlər dövlətlərin sabitliyinə mənfi təsir göstərir. M.Zabelin Bakıda cari ilin 8-9 mart tarixlərində "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın və 14-16 mart tarixində Azərbaycan Respublikası Prezidentinin himayəsi altında "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun keçirilməsinin əhəmiyyətini vurğulayıb. O, dünya miqyasında nüfuzlu ictimai-siyasi xadimlərin, ekspertlərin iştirakı ilə qlobal xarakterli məsələlərin müzakirə edildiyi belə tədbirlərin Azərbaycana olan etimaddan xəbər verdiyini söyləyib.

M.Zabelinin sözlərinə görə, öz ərazi bütövlüyünü təmin edən Azərbaycan yeni reallıqlar yaradıb və hazırda regionumuzda sülhün təmin olunmasına çox yaxınıq. Lakin bu vəziyyət Fransa da daxil olmaqla Qərbdə bəzi dairələri narahat edir və onlar Ermənistana təsir göstərərək sülhün bərqərar olmasına mane olmağa çalışırlar. Buna baxmayaraq, Azərbaycan regional təhlükəsizlik kontekstində mühüm təşəbbüslərlə çıxış edir, eyni zamanda, işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparır, Böyük Qayıdış prosesi uğurla davam edir.

M.Zabelin qeyd edib ki, multikulturalizm və tolerantlıq ənənələrinin dərin kök saldığı Azərbaycanda müxtəlif dini, etnik mənsubiyyətə malik insanların dinc birgəyaşayışı dövlət siyasətinin prioritetlərindəndir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun tərkibində digər vətəndaşlar kimi rusların da şücaət göstərməsi Azərbaycan xalqının birliyinin bariz sübutudur.

YAP İdarə Heyətinin üzvü Azər Badamov isə çıxışında qeyd edib ki, bu gün beynəlxalq hüquqa hörmət edilmir, qlobal qütbləşmə prosesi sürətlənir, suveren dövlətlərin daxili işlərinə müdaxilə adi hala çevrilib. Onun sözlərinə görə, Azərbaycan da belə ikili standartlarla üzləşib, torpaqlarımız 30 ilə yaxın müddətdə işğal altında olarkən beynəlxalq hüquqa məhəl qoyulmayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalıb. Lakin ölkəmiz öz gücü ilə tarixi ədalətin bərpasına nail olub və məlum qətnamələrin icrasını təmin edib.

A.Badamov bildirib ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək bütün ərazilərində suverenliyini tam bərpa etməsi ilə barışmaq istəməyən bəzi Qərb dövlətləri, o cümlədən Fransa ölkəmizə təzyiqlər göstərməyə çalışır. "Fransa və bəzi digər Qərb ölkələri insan haqları, demokratiya və söz azadlığından suveren dövlətlərin daxili işlərinə qarışmaq üçün alət kimi istifadə etmək əvəzinə, qlobal problemlərin həllində həmrəylik nümayiş etdirməlidirlər. Məsələn, Azərbaycan COP29 konfransına ev sahibliyi edəcək ölkə olaraq seçilib. Bu, "yaşıl keçid" sahəsində təşəbbüslərimizin dəstəklənməsinin göstəricisidir və Azərbaycanın qlobal problemlərin həllinə verdiyi töhfənin daha bir sübutudur. Biz söz azadlığını, insan haqlarını yüksək səviyyədə təmin etmişik. Bütövlükdə hesab edirəm ki, xalqlarımızın və dövlətlərimizin milli maraqlarına zidd fəaliyyət göstərən dairələrin cəhdlərinin qarşısının alınmasında bir-birimizə dəstək olmalıyıq" ,- deyə A.Badamov qeyd edib.

Həmin gün tədbir iştirakçıları İ.Kantın məzarını ziyarət edib, Kalininqrad şəhərinin müxtəlif tarixi abidələri və mədəni obyektləri ilə tanış olublar.

# "Azərbaycan ərazisində "yaşıl enerji"nin təşkili ilə bağlı xüsusi atlas hazırlanıb"



"Azərbaycan klassik enerji resurslarının istehsal edən dövlət olmaqla yanaşı, "yaşıl enerji"yə keçid etmək üçün uzun illərdir mərhələli və sistemli layihələr həyata keçirməkdədir. Xüsusilə də xarici investisiya əsasında Azərbaycanda günəş və külək stansiyalarının qurulması dövrün tələblərinə cavab verməkdədir. Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmasından sonra bu yerlərin "yaşıl ərazi" elan edilməsi və burada alternativ enerji resurslarının istehsalına başlanması, Abşeron yarımadası və Xəzər dənizində də layihələrin icrası təqdirəlayiq addımlardandır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib. Onun sözlərinə görə, Azərbaycan ərazisində "yaşıl enerji"nin təşkili ilə bağlı xüsusi atlas hazırlanıb: "Azərbaycanın hansı regionlarında hansı enerjinin istehsalının mümkün olması bu atlasda öz əksini tapıb. Ərəb şirkətlərinin Azərbaycana sərmayəsi, BP ilə birlikdə "yaşıl enerji"nin istehsalına qoyulan sərmayə, eyni zamanda ölkəmizdən alternativ enerji resurslarının Avropaya çatdırılması üçün Qara dənizin dibindən xüsusi xəttin çəkilməsi də həyata keçirdiyimiz uğurlu layihələrdəndir. "Yaşıl enerji"yə keçidi tam təmin etdikdən sonra Azərbaycanda klassik enerji resurslarından istifadə azaldılacaq. Bu da nəticə etibarilə Azərbaycanda havaya buraxılan zəhərli qazların həcmini azaldacaq".Deputat sözlərinə davam edərək bildirib ki, bir sözlə "yaşıl enerji"yə keçid Azərbaycanda ekologiyanın qorunmasına çox böyük töhfə verəcək: "Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi bu uğurlu siyasəti dəstəkləyirik. Dövlətimizin ətraf-mühitin qorunmasına olan münasibəti nəticə etibarilə COP29-un Azərbaycanda keçirilməsi üçün əla bir zəmin oldu. Yaşıl dünya naminə həmrəyliyi təmin etməyi qarşısına məqsəd qoyan Azərbaycan 2024-cü ildə hədəflərinə çatmaq üçün bütün sahələrdə maraqlı layihələr həyata keçirəcək".

***Ləman Sərraf***

MÖVQE



İLHAM

## Gültəkin Hacıbəyli yaxşıdır, yoxsa axsaq ördək?

***Dağıdıcı müxalifət düşərgəsində elə məxluqlar var, onlar bir neçə siyasi təşkilat dəyişdikdən sonra, nəhayət hansısa partiyada lövbər salıblar. Belələrinə cəmiyyət də hörmətsiz yanaşıldığı kimi təmsil olunduqları partiyalarda da inam yoxdur. Xüsusilə də, biz zaman hakimiyyətin hansısa qolunda təmsil olunub, sonradan məkrli planlara daha çox meyilli olması səbəbindən vəzifədən uzaqlaşdırılan və ya parlament seçkilərində deputat yeri qazana bilmədiklərindən müxalifətə keçən ünsürlər münasibət daha ikrahedicidir.***

Sıravi müxaliflərin Əli Kərimli kimi qolçomaq xislətli məxluqun həndəvərində veyillənən Gültəkin Hacıbəyliyə olan sıravi müxaliflərin yanaşması dəvənin nalbəndə baxması kimidir. Bu məxluq isə ona olan mənfi münasibətə baxmayaraq arsız-arsız bəd əməllərini davam etdirir. Bəzən cilddən-cildə düşməklə Əli Kərimlinin, Cəmil Həsənlinin və xaricdəki ağasının gözündə yüksəlməyə çalışır. Lakin görünən ondan ibarətdir ki, "fədakarlığı" nəticəsiz qalır. Çünki, ona qarşı böyük inamsızlıq var. Həm də ona görə ki, zamanın da müxalifəti alçadan, Əli Kərimliyə, Arif Hacılıya , İsa Qəmbərə qarşı müxtəlif ittihamlar irəli sürüb, onları təhqir edib. G.Hacıbəyli özü də ona olan mənfi münasibətin fərqindədir. Lakin arsız və vecsiz məxluq olduğundan dağıdıcı müxalif partiya sədrlərinin və sıravi üzvlərinin ona iylənmiş məhsul kimi baxmalarına əhəmiyyətsiz yanaşır. "Bir zaman fikir dəyişər" düşüncəsi ilə əməllərini davam etdirir. Müxtəlif İnternet TV-lərdə və sosial şəbəkələrdə fəallıq göstərməklə gündəmdə qalmağa çalışır. Ancaq onun bu fəaliyyəti müəyyən məqamda aydınlaşdıqca, daha çox qaranlıq əməlləri üzə çıxmağa başlayır. Məlum olur ki, G.Hacıbəyli yalnız siyasi cameənin ləkələnmiş məxluqu deyil, həm də Ə.Kərimlinin formalaşdırdığı və İlham Hüseynin koodinasiya etdiyi trol dəstəsinin üzvüdür. Bəzən İ.Hüseyn bu əmrlərə müti trolu necə qazlayırsa, o da ağlına deyil, ağzına gələnləri danışır və ya sosial şəbəkələr vasitəsi ilə paylaşır. O gün də ağızı göycəklik edərək iddia edir ki, Paşinyanın Avropa Birliyinin və ABŞ-ın nümayəndəsi ilə görüş keçirməsi erməni xalqının uğurudur. Deyir ki, Paşinyan bu tip görüşlərlə ölkəsinin siyasi, sosial problemlərini həll edəcək. Lakin dərk etmir ki, dilənçilərə hörmət qoyulmur, həm də əl açıb, ondan bundan yardım istəməklə varlanmaq olmaz. Ermənistan ağır, sosial, iqtisadi problem içində əzilir. Bu problemləri kənardan göndərilən ianələrlə aradan qaldırmaq mümkün deyil. Yetər ki, özünün potensialın və imkanların olsun. Belə hal Ermənistanda görünmür. G.Haıcıbəyliyə yer edən, canına üşütmə salan, beyninə təsir edən hallardan bir də ondan ibarətdir ki, Azərbaycanda Makrona "axsaq ördək" deyilib. Xanım trola bu söz necə təsir edibsə, digər "əqidədaşları" kimi ermənipərəst və "fransız" mövqeyindən çıxış edir. O Makronun müdafiəçisi rolunda çıxış edib, ermənilərə revanşist sayıqlamalarına haqq qazandırmağa. Təbii ki, G.Hacıbəyli öz hərəkətlərinə nəzarət edə bilmir. Daha doğrusu istəsə belə fikirlərinə sərhəd qoya, addımlarına nəzarət edə bilməz. Çünki Ə.Kərimlinin sifarişi sətr və dəyişməzdir. Əks təqdirdə gərəksiz əşya kimi Milli Şuranın üzvülüyündən kənarlaşdırıla bilər. Bu təhlükənin an məsələsi olduğunu anladığından G.Hacıbəyli erməni revanşistlərinin dostu, Makronçuların müdafiəçisi kimi çıxışlar edir. Lakin el-oba da bir məsəl var, "it hürər karvan keçər". G.Hacıbəylii öz nədir ki, danışdıqları nə ola.

# Ağdaban soyqırımı

***Terrorçunun milliyyəti və sərhədi yoxdur. Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur.***

Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilər tarixi, irsi, mədəniyyəti ilə dünyanın marağında olan bir dövlətlə Azərbaycanla qonşudurlar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni cildi dəyişməyib. Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlıların həyatına son qoyulub.

Ermənistanın qanunsuz, beynəlxalq konvensiyalara ziddir əməllərindən, xalqımıza qarşı törətdikləri qətliam, soyqırımı və faciələrdən yazarkən böyük bir xalqın kiçik bir "dövlət"in terrorizminə, vandallığına məruz qaldığını görürük. Yaşadığımız acı nəticələr xalqımızın tarixinin müxtəlif dönəmlərində 200 ilə qədər olan tarixində silinməz izlər saldığı hər kəsə yaxşı bəllidir. Yaxın zamanda bir-birinin ardınca Xocalı soyqırımını, 31 Mart Azərbaycanlıların Soyqırımı günlərini, Başlıbel faciəsini xatırlayıb ermənilərin xalqımızın başına açdıqları bu və digər oyunların insanlarımıza nə qədər acılar və ağrılar yaşatdığının bir daha şahidi olduq. Hadisələri gedişi göstərir ki, təkrarlanan bu hadisələr ermənilərin "Böyük Ermənistan" yaratmaq istəklərini reallaşdırmaq, özgə torpağı üzərində "ərazisini" genişləndirmək niyyəti daşıyır. Tarixin müxtəlif dönəmlərində torpaq itkilərinə, fəlakət və böyük dağıntılara məruz qalan Azərbaycana sarsıdıcı zərbələr vurmaqda davam ediblər.

Tarixdən məlumdur ki, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri bağlanıldıqdan sonra ermənilər kütləvi surətdə Azərbaycan ərazilərinə yerləşdiriliblər. Bu siyasət uzun illəri əhatə etmiş və ermənilər Azərbaycan torpaqları hesabına öz coğrafi ərazilərini kifayət qədər genişləndirə bilmişlər. Ötən əsrdə 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan çıxarıldı, daha sonra isə 1988-ci ildə kütləvi qırğınlarla müşayiət olunan deportasiyaya məruz qaldılar. Təbii ki, doğma el-obasından qovulan azərbaycanlılar həm insan, həm də böyük maddi itkilərə məruz qalmış oldular.






## 20 MİNƏ YAXIN AZƏRBAYCANLI QƏTLƏ YETİRİLİB

Ötən əsrin son illərində erməni təcavüzkar siyasətinin məntiqi olaraq məlum tarixi torpaqlarımız işğal olundu. Statistik rəqəmlərdə qeyd olunduğu kimi, təcavüz nəticəsində 20 minə yaxın azərbaycanlı qətlə yetirilib, 100 min nəfər yaralanıb, 50 mindən çox adam əlil olub. Bu rəqəmlərdən aydın olur ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilik, vandallıqdır. Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsinin müəllifi olan bir "xalq"ı öz adı ilə çağırmalıyıq. Əgər Ermənistan işğal etdiyi ərazilərdə (işğal dövründə) 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 minə yaxın ev, 1025 məktəb, 798 səhiyyə obyekti, eləcə də 927 kitabxana, 100-dən artıq arxeoloji abidə, həmçinin 454 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı erməni təcavüzünün qurbanı olubsa, buna vəhşi, təcavüzkar "xalq"ın vandallığından başqa ad verməк olmaz.

## KƏLBƏCƏRİN ƏN KƏDƏRLİ, SÖZLƏ İFADƏSİ ÇƏTİN OLAN SƏHİFƏSİ

Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımından 32 il ötür. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Xocalı faciəsində bir gecənin içində bir şəhər yer üzündən silindiyi kimi, Ağdaban soyqırımı zamanı da bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır. Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivinə od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin ən kədərli, sözlə ifadəsi çətin olan səhifəsidir.Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına dair konvensiyalara sığmayan faciəyə "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsi ilə "Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradılıb. Komitə, qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır.

## ŞƏHİD KƏND VƏ ŞƏHƏRLƏRİN QİSASI ALINDI

1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başlayıb. Ermənilər Ağdaban kəndinə hücum edib və onu ikinci dəfə viran ediblər. Bu gün şəhid kənd və şəhərlərin, faciə, soyqırımı qurbanları olanların qisası alındı. Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü. rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. İşğal altında olan şəhər, kənd və qəsəbələrimiz Azərbaycan ordusu tərəfindən azad olundu. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə sona çatdı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan məğlub edildi.

Ermənistan ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq əməllərinin şahidi olduq. Ən dəhşətlisi gecə yatmış insanlara qarşı belə cinayətin törədilməsi zamanımızın qaniçənliyidir, bu insanlar yer üzünün lənətlənmişləridir. Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Elə Bərdə də yaşanılan hadisələr ermənilərin faşist əmməllərini təsdiqlədi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələrini endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Vətən müharibəsində dünyanın gözü qarşısında cinayətlər törədən ermənilər bir daha faşist ideologiyalarını ortaya qoymuş oldular.

## "İŞĞALIN SONU YA SÜLH MÜQAVİLƏSİDİR, YA DA QAÇILMAZ MƏĞLUBİYYƏTDİR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır". Dövlət başçısı onu da qeyd etmişdir ki, biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin: "Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir".

Uzun illər dövlət başçısının apardığı danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında məğlub oldu.

Qarabağ uğrunda Ermənistan və Azərbaycan arasında baş vermiş 44 günlük Vətən müharibəsinin Zəfər ilə başa çatmasından sonra bölgədə nəinki yeni siyasi, eləcə də yeni iqtisadi vəziyyət yaranıb. Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü – Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il idi ki, Ermənistan tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Faktlara nəzər salsaq, görərik ki, Kanadanın First Dynasty Mines şirkəti Kəlbəcərin "Söyüdlü" qızıl yatağının istismarı ilə məşğul olub. Bu beynəlxalq konvensiyalara zidd əməldir. Artıq Azərbaycan öz tarixi torpaqlarına sahibdir. Bütün sərvətlərinin – yeraltı və yerüstü sərvətlərinin sahibidir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycan dövlətçiliyində Heydər Əliyev fenomeni

TƏHLİL

***Bu gün ki, güclü və qüdrətli Azərbaycan dövləti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu dövlətdir. Bu baxımdan əsrlər keçsə də qədirbilən Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevə təşəkkür edəcək, Onun xidmətlərini yüksək qiymətləndirib, adını hörmətlə çəkib, ruhuna dualar oxuyacaqlar. Fakt ondan ibarətdir ki, Dahi Öndərimiz Heydər Əliyev hələ birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamızın inkişafına, xalqın sosial rifah halının yaxşılaşmasına xüsusi diqqət göstərib. Bu baxımdan o zaman aqrar ölkə kimi xarakterizə edilən Azərbaycan Ulu Öndərimizin qətiyyəti və prinsipiallığı nəticəsində sənaye diyarına çevrildi.***

İttifaq respublikaları arasında Azərbaycan iki respublikadan biri idi ki, özünü hər şey ilə təmin edirdi. Fundamental islahatlar nəticəsində əhalinin sosial vəziyyəti yaxşılaşdı, respublikamız sayılan və seçilən respublikaya çevrildi. 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı. Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini iki dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, əhalinin güzəranı qat-qat yaxşılaşdı. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artdı, 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın nüfuzlu hərbi məktəblərində hərb sənətinin sirlərinə yiyələnirdi. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi.

Ümummilli Lider Heydər Əliyev çox sonralar – 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

Təssüf hissi ilə vurğulamaq lazımdır ki, Ulu Öndər Heydər Əliyevin qurub, yaratdıqlarını Onun Moskvaya ittifaq rəhbərliyinə getməsindən sonra dağıdıldı. Azərbaycan müstəqillik əldə etdiyi illərdə isə ölkənin vəziyyəti daha kritik vəziyyət aldıO dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkə daxili vəziyyətin idarə olunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkə daxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütləri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın o zaman kı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

## Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də, dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun".

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı.

Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi.









Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı.

Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələr də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”, - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.



## Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir

2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: “Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı”.

Son 20 il də Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. 20 il bundan əvvəl prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: “Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”. Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin “torpaqlarımızın işğaldan azad edilməsi” vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, “Qarabağ Azərbaycandır və nida” deyən Qalib Sərkərdəmizin “Dəmir yumruq” siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəfəridir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”.

Hazırda Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsait ayrılır, 2024-cü il dövlət büdcəsindən isə daha 5 milyard manat vəsaitin həyata keçiriləcək bərpa-quruculuq işlərinə xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir.

2026-cı ilə qədər ümumilikdə 140 min keçmiş qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarına qayıtması nəzərdə tutulur. Bir sözlə uğurlar və qələbələr bizimlədir. Bu da Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin böyük qətiyyətlə apardığı müdrik siyasətin nəticəsidir. Qələbələr və uğurlar isə hələ öndədir. Dahi Öndərimiz Heydər Əliyev demişkən “Azərbaycan dünyaya günəş kimi doğacaq”

***İLHAM ƏLİYEV***

# Dağıdıcı müxalifət "siyasi məhbus" alverini təzələyir

***Dağıdıcı müxalif düşərgənin xarici maraqlı dairələrin sifarişləri əsasında fəaliyyətlərini quran məxluqları zaman-zaman müxtəlif vasitələrdən istifadə etməklə gündəmə gəlməyə, ən azı mətbuatın diqqət mövzusuna çevrilməyə çalışıblar. Gah onlara təzyiqlərin olmasından dəm vurur, gah aksiyaların keçirilməsi üçün yerlərin ayrılmadığını iddia edir, gah da ölkə də "siyasi məhbus" var deyib, hay-küy qaldırılar. Uzun müddət sonuncu məsələdən istifadədən yayınan müxalif zümrə son vaxtlar yenidən əski bayatıları səsləndirməyə başlayıb.***





ANALİZ

Hətta AXCP sədri Əli Kərimli və Milli Şuranın rəhbəri Cəmil Həsənli o dərəcə də çaşıb və başlarını itiriblər cibgirlik edən, qarət və qətl törədənləri də "siyasi məhbus" kimi təqdim etməyə çalışırlar. Əli Kərimlinin ağına görə Qubad İbadoğlu, Nazim Baydımirli, Sahib Məmmədzadə və digərləri "siyasi məhbus"dur. Halbuki, sözügedən şəxslər haqqında əsaslı faktlar və sübutlar əsasında cinayət işi qaldırılıb və onlar həbs olunublar. Ə.Kərimli isə açıq şəkil də dostlarının cinayət əməllərinə haqq qazandırır və hüququq-mühafizə orqanlarına qarşı əxlaqına uyğun olaraq ittihamlar irəli sürür. Hətta Sahib Məmmədzadəni "qəhrəman"laşdırmağa çalışır. Ancaq polisin verdiyi məlumat görə, Sahib Məmmədzadə narkotika satışını həyata keçirirmiş və əməli şahidlərin ifadələri ilə sübuta yetirilib.

Digər tərəfdən Ə.Kərimli S.Məmmədzadəni cəbhəçi olaraq təqdim edib, onun ətrafında şou yaratmağa çalışır. Lakin o heç zaman AXCP üzvü olmayıb. Bunu Ə.Kərimli özü də paylaşdığı statusunda etiraf edir. Təhqirdən ibarət olan statusunda yazır: "Oliqarx tör - töküntüləri ötən il Xoşbulaq yaylağındakı örüş yerlərini zəbt edib, Daşkəsən camaatının əlindən alanda Sahib bəy hələ AXCP-yə qoşulmamışdı. Ancaq o etiraz edən camaatın sözçüsü oldu. Yerli camaatın şikayətlərini ölkə ictimaiyyətinə çatdırdı. Məruz qaldıqları bu haqsızlığa dözmədi".

## Əli Kərimli daha çox xarici qrant əldə etmək üçün "siyasi məhbus" ovunu genişləndirir

Ə.Kərimlinin bu cür baş-ayaq cümlələrinə istinad etsək belə aydın olur ki, S.Məmmədzadə cəbhəçi deyil, sadəcə Ə.Kərimlinin işinə yarayan mövqe sərgilədiyi üçün onu cəbhəçi kimi təqdim etməyə çalışır. Yəqin ki, xəbər də göndərib ki, "möhkəm dayan və biz səni "siyahı məhbus" kimi təqdim edib, işimizə yarayan təbliğat qurucağıq. Belə də olmaqdadır. Ə.Kərimli və ətrafında olan trollar S.Məmmdzadəni "siyasi məhbus" kimi təqdim edib hay-küy qaldırırlar. Lakin biçarə S.Məmmdzadə anlamır ki, Ə.Kərimli və ətrafında olan trollar ondan xarici maliyyə dairələrindən daha çox qrant almaq üçün istifadə edirlər. Əsaslı olaraq Milli Məclisin deputatı Elşən Musayev Ə.Kərimlini insanların üzləşə biləcəyi problemlərdən qazanc əldə etməkdən çəkinməyən şəxs olduğunu bildirir.

Deputat SİA-ya verdiyi açıqlamasında bildirib ki, Azərbaycanda kimsə siyasi mənsubiyyətinə görə həbs olunmur, kimsə cinayət törətmədiyi halda məsuliyyətə cəlb edilmir, kimsənin haqqında yetərli, tutarlı sübutlar olmadan azadlıqdan məhrumetmə qərarı verilmir. Deputat sözlərinə belə davam edib: "AXCP sədri indi də Sahib Məmmədzadə üzərindən şou göstərir, ard-arda statuslar yazır, hakimiyyəti ittiham edir. Hətta ittihamla kifayətlənmir, təhqir edir. Tərbiyəsiz adam! Vicdansız adam! Mənəviyyatsız adam! Ətrafındakı qaraguruhçuları cinayətə sürükləyir, onların həbsinə nail olur və sonra da qışqırır ki, tərəfdaşlarıma qarşı haqsızlıq olub. Sənin yanında olan səndən nə öyrənəcək ki? Əli Kərimli kimi beynəlxalq miqyaslı "bandit" öz tərəfdaşına hansı tövsiyyəni, məsləhəti verə bilər ki? Belə başıpozuqun yanında hansı təfəkkürün, beyinin yiyəsi qərarlaşa bilər ki?"

## AXCP "siyasi məhbus" siyahısının tərtibatında Müsavatı üstələməyə çalışır

Yaxın keçmişə nəzər saldıqda məlum olur ki, hələ o zamandan Müsavat və AXCP "siyasi məhbus" siyahısının tərtib edib, yayılmasında bir-biri ilə rəqabət aparıblar. Bu da nəticə də bir-birindən fərli rüsvayçı siyahıların ortaya çıxmasına gətirib çıxarıb. O zaman Müsavat partiyası ətrafında fırlanan qondarma "hüquq müdafiəçilər"inin iştirakı ilə 94 nəfərin adını qeyd etdikləri məhbus siyahısı hazırlayıb, beynəlxalq təşkilatlar göndərmişdilər. Müsavatın siyahısı ortaya çıxdıqdan sonra Ə. Kərimlinin tapşırığı ilə 166 nəfərlik "siyasi məhbus" siyahısı hazırlandı. Bu ziddiyyətlər AXCP ilə Müsavat arasında qarşıdurmaya və bir-birini ittiham etməyə gətirib çıxartdı. Tərəflərin hər biri özünün təqdim etdiyi qondarma siyahını müdafiə edib, özünün haqlı olduğunu sübut etməyə çalışırdı. Eyni məzhəkəli oyun yenidən dövriyyədədir. AXCP və Müsavat funksionerləri gəlir mənbəyi hesab oluna "siyasi məhbus" siyahısı hazırlamağa başlayıblar. Təbii ki, yenə də ortaya bir-birindən fərqlənəcək siyahı çıxacaq. Bu əcayib-qərayib siyahılardan nə qədər qrant qazanacaqları məlum olsa da, müəmmalı görünən məslə ondan ibarətdir ki, görən Ə.Kərimli, A.Hacılı, İ.Qəbər, C.Həsənli və bu oyunda iştirak edən digər məxluqlar anlayırlarmı, insanların əzabları üzərində qazanılan pulla varlanmaq və özünə xöşbəxt həyat qurmaq mümkün deyil?

***İLHAM ƏLİYEV***

# Ali təhsil, yoxsa peşə təhsili?



MÜNASİBƏT

"Peşə təhsilinə marağın az olduğunu deməzdim". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib. O bildirib ki, əksinə, son illərdə peşə təhsilinin inkişafı ilə bağlı ölkəmizdə xeyli işlər görülüb və görülməkdədir: "Peşə təhsili ilə bağlı peşə təhsilini inkişaf etdirmək, təhsilin bu növünə dövlət dəstəyini artırmaq məqsədilə Elm və Təhsil Nazirliyinin Peşə Təhsili Agentliyi formalaşıb. Peşə təhsilinin inkişafı ilə bağlı qanunvericilik formalaşdırılıb. Müxtəlif dövlət proqramları hazırlanmışdır. Çox yaxşı nümunədir ki, bu işləri rolu böyük olsa da, yalnız Elm və Təhsil Nazirliyi deyil, müvafiq dövlət qurumları ilə də birgə bu işlər həyata keçirilir.








Burada İqtisadiyyat Nazirliyinin böyük rolu var, çünki ölkə iqtisadiyyatının inkişafının icrası bu qurum tərəfindən həyata keçirilir. Digər tərəfdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələdə konkret işlər görür. Xüsusilə, Dövlət Məşğulluq Agentliyinin fəaliyyətini qeyd etmək istəyirəm. Ümumilikdə peşə təhsilinə marağın formalaşdırılması istiqamətində xeyli işlər görülüb və görülməkdədir. Burada çox vacib məqam kimi təhsilin bu növünün qanunvericilik bazasının formalaşması istiqamətində görülən işləri göstərmək istəyirəm. Bu da çox əhəmiyyətlidir. Çünki hər bir sahədə islahatların keçirilməsi üçün ilk növbədə onun qanunvericilik bazası yaxşı olmalıdır. Qarşıya qoyulan hədəflərə doğru işlər görülməsi ilə bağlı boşluqlar olmamalıdır. Düşünürəm ki, bu istiqamətdə həqiqətən çox yaxşı işlər var.

Eyni zamanda peşə təhsilinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı da xeyli işlər görülüb. Zamanında peşə təhsil müəssisələri bütün rayonlarda fəaliyyət göstərirdi. Söhbət Sovet dövründən gedir. Artıq Sovet hakimiyyəti dağılandan sonra bu peşə məktəbləri dağıldı. Onların maddi-texniki bazası sıradan çıxdı. Peşə məktəblərinin əraziləri başqa təyinat üzrə istismar olunmağa başladı. Son illərdə peşə təhsili müəssisələrinin yenidən formalaşması, müasir dövrün tələblərinə uyğun formalaşması istiqamətində böyük işlər görülür. Ən yüksək səviyyədə Azərbaycanın fərqli regionlarında peşə təhsili mərkəzləri fəaliyyət göstərir. O mərkəzlərdə məhz regionların əmək bazarının tələbinə müvafiq ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Bakıda Koreya hökuməti ilə çox gözəl layihə illərdir həyata keçməkdədir. Əmək bazarı üçün daha çox tələb olunan peşə ixtisasları üzrə tələbə, kadr hazırlığı keçirilir.

Digər tərəfdən peşə təhsilinə marağı artırmaq üçün dövlətin çox vacib işlərindən biri yüksək texniki ixtisaslarda təhsil alan tələbələrin gələcəkdə öz təhsillərini davam etdirmələri üçün yaradılmış şəraitdir. Hansı ki, dövlətin bununla bağlı müvafiq qərarı oldu və artıq yüksək peşə təhsili ixtisasından birbaşa subbakalavr diplomu verilir. Onlar ali təhsil müəssisələrinə subbakalavr olaraq müraciət etmək imkanı əldə ediblər. Son illərdə bu istiqamətdə verilən çox mühüm qərarlardan biri kimi səciyyələndirirəm.

Peşə təhsilinə marağı artırmaqla bağlı, ayrı-ayrı qeyri-hökumət təşkilatları layihələr həyata keçirirlər. Elm və Təhsil Nazirliyi ilə birgə layihələr reallaşdırılır. Peşə təhsilinin populyarlığını artırmaqla, gəncləri məhz gələcək peşələrin təbliğ olunması, gələcək peşə ixtisasları hansı olacaqsa, bunlarla bağlı maarifləndirmə işləri aparılır".

Onun sözlərinə görə, regionlarda müxtəlif peşə mərkəzləri fəaliyyətə başlayıb: "Bəzən cəmiyyətdə belə fikirlər formalaşır ki, əslində bütün rayonlarda peşə məktəbləri olmalıdır. Fikirləşirəm ki, gələcəkdə bu məsələlər həllini tapacaq. Amma müasir peşə məktəbini açmaq həm də maliyyə tutumlu məsələdir. Maliyyə tutumlu olmaqla bərabər həmin məktəblərdə tədrisi həyata keçirəcək kadrlara ehtiyac var. Peşə təhsili müəssisələrində çalışan kadr hazırlığını təmin etmək üçün vacibdir. Bunu da yüksək qiymətləndirirəm ki, Elm və Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi bu istiqamətdə peşə təhsili müəssisələrində tədrisi həyata keçirmək üçün kadr hazırlığına da önəm verir.

Artıq müasir peşələr bizi gözləyir. Klassik, ənənəvi peşələrlə bərabər gələcəyin peşələri nə olacaqsa, bu istiqamətdə işləri davamlı olaraq qururuq. Dördüncü sənaye inqilabı, Azərbaycanın iqtisadiyyatının güclənməsi, işğaldan azad olunmuş ərazilərin bərpası, orada təhsilin formalaşması, həm də peşə təhsili məktəblərinin yaradılması, həmin regionlarda əhalinin məşğulluğunu təmin etmək üçün kadrların hazırlanması hədəfləri var. "Böyük Qayıdış"a aid Prezident tərəfindən imzalanmış proqram icra olunur. Bütün bunlar mərhələlidir.

Proqramlar kortəbii yox, daha çox məqsədli, səmərəli olaraq peşə məktəblərinə istifadəni təmin etməliyik. Peşə məktəblərinə qəbul prosesi kifayət qədər şəffaflaşdırılıb. Proseslər elektronlaşdırılır. Hər hansı neqativ haldan söhbət gedə bilməz. Bu məqsədlə məhz peşə təhsilinin genişləndirilməsi üçün şəffaf mühit də vacibdir. Əminəm ki, gələcəkdə peşə təhsilinə gənclərin marağı daha çox olacaq. Bu marağı təmin etmək üçün biz fərqli bölgələrdə peşə təhsilli üzrə məktəblərin sayını artırmaq məsələsini düşünəcəyik.

Maliyyə tutumlu məsələ olsa da, dövlətin bununla bağlı konkret baxışı var. Bu baxış hesab edirəm ki, düzgün formalaşdırılıb. Peşə təhsilinin gələcəyinə ümidlə yanaşıram. Peşə təhsili olmadan biz əhalinin məşğulluğunun təmin edilməsində, həm də iqtisadiyyatın kadr təminatından danışa bilmərik. Peşə təhsilinə həm marağı artırmalıyıq, həm də bu istiqamətdə davamlı çalışmalıyıq. Peşəkar formada təhsilli peşə kadrlarının hazırlanmasında ardıcıllığımızı davam etdirməliyik".

***Söylü Ağazadə***

# Ramazan "Qurani-Kərim"in baharıdır



Deyirlər ki, minlərlə çiçək var, amma gül başqadır. Milyonlarla insan var, amma dost başqadır. Neçə-neçə aylar var, amma bu ay – Ramazan başqadır. Ulu Tanrı gəlişi ilə çöləçəmənə yaşıl rəng səpələyən, min bir rəngli gül-çiçəyi ilə dünyamızı bəzəyən, dağların zirvəsindəki qarı əridib şaqqıltı ilə axan çaylara qovuşduran, büllur bulaqları qış yuxusundan oyadıb onlara həzin nəğmə oxutduran, ılıq nəfəsi ilə payızda soyuqdan özlərinə yer axtarıb isti ölkələrə üz tutan quşları geri çağıran baharı var etdiyi kimi, Ramazan ayını da "Qurani-Kərim"in baharı olması üçün var etdi. Onun başına "tac" qoyub on bir ayın sultanı elan etdi. Bu ayın qədərinə müqəddəs kitabımızın nazil olmasını nəsib etdi. Ramazanla müsəlman aləmi özünün yeni bir dövrünə – baharına, yazına qədəm qoydu. İslam dini bu baharla dinlərin ən ali mərtəbəsinə ucaldı. Allahın sonuncu elçisi Həzrəti Məhəmmədə (s.a.s) peyğəmbərliyin bu ayda verilməsi, müsəlmanların Məkkəni Ramazanda fəth etməsi, bir də oruc kimi möhtəşəm ibadətin bu aya layiq görülməsi, sanki Tanrının da həmin 30 günə sevdasındanmış

Məlumdur ki, oruc İslamla başlamamışdır, insanlar İslamdan əvvəl də oruc tutmuşlar. Bu, "Qurani-Kərim"də də açıq-aşkar ifadə edilmişdir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi" (Bəqərə, 183). Lakin yuxarıda sadalananların on bir aydan fərqli olaraq məhz bu aya sığdırılması Ramazanı zaman-zaman müqəddəsləşdirdi. Allah-Taala orucla bağlı buyurub: "... Oruc mənim üçün edilən və riya qarışmayan ibadətdir. Onun mükafatını mən verəcəyəm. Çünki oruc tutan yeyib-içməyini və digər istəklərini mənim üçün tərk edib".

Oruc tutmaqla Allahın əmrini sevərək yerinə yetirən möminlərin bağışlanacağını, günahlarının silinəcəyini müjdələyən Həzrəti Məhəmməd isə belə buyurub: "Kim inanaraq, mükafatını Allahdan istəyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar İnsanın hər yaxşı əməlinin əvəzi qat-qat verilir. Bir yaxşılıq on qatdan 700 qata qədər mükafatlandırılır". Bundan aydın olur ki, oruc Uca Yaradana böyük səbir və fədakarlıqla edilən ibadətdir. İldə bir ay ərzində insanın gecənin ala¬qaranlığından günəş batana qədər ən təbii haqqı və zəruri ehtiyacı olan qidadan uzaq durması böyük iradə və səbrin, inamın nümunəsi, Allahın əmrlərinə təslim olmanın göstəricisidir.

Ramazan ayı Allaha ibadətlə yanaşı, həm də bu ayda ac qalmaq tibbi cəhətdən insanlar üçün çox əhəmiyyətlidir. Orucda böyük ilahi hikmət var. Eyni zamanda bir ay oruc tutmaq insanın sağlamlığında da mühüm rol oynayır. Axı bu əməli vacib edən Allah-Taala bəndəsinə faydalı olmayan heç nəyi əmr etməz. Peyğəmbərimiz Həzrəti Məhəmməd buyurmuşdur: "Oruc tutun ki, sağlam olasınız!" Qədim zamanlardan başlamış günümüzədək oruc ibadətlə yanaşı, insan sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi də nəzərdə tutulub. Antik dövrdə Sokrat, Platon, Aristotel kimi yunan müdrikləri müəyyən müddət ac qalmağı, başqa sözlə, oruc tutmağı tövsiyə etmişlər. Müasir alimlər də yemək-içməkdən imtina etməklə bir çox xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə ¬etmişlər.

Bir çox dərdin dərmanı elə insanın öz əlindədir. Bu gün həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkündür. Oruc tutarkən mədə, bağırsaqlar, qara¬ciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, damarlar xolesterindən azad olur, beyin daha yaxşı işləyir. Orqanizmdə zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Bir çox insanın əziyyət çəkdiyi artıq çəkidən və onun doğurduğu xəstəliklərdən qurtulmaq üçün oruc təsirli vasitədir. Eyni zamanda oruc pis vərdişləri (siqaretə, spirtli içkilərə və sair) bağlılığı tərgitməyə də kömək edir.



Oruc tutmaq, həmçinin bel, onurğa, boyun ağrılarının sağalmasına kömək edir. Bu yaxınlarda bir mənbədən oxumuşdum ki, Norveçdə aparılan elmi-tədqiqat nəticəsində qida qəbulundan imtinanın oynaqların iltihabının müalicəsində effektiv vasitə olduğu təsdiqlənmişdir. Bir şərtlə ki, xəstə dörd həftə ac qalsın. Bu isə, təxminən Ramazan orucunun müddətinə bərabərdir.

Oruc insan psixikasına, əsəb sisteminə də müsbət təsir göstərir, bir sıra psixiatrik xəstəliklərin müalicəsində əvəzsiz vasitədir. Maraqlı bir faktı da deyim ki, rus alimi, professor Yuri Nikolayev məhz oruc vasitəsilə 7 min nəfərdən çox psixi xəstəni müalicə etmişdir. Ümumiyyətlə, insan orqanizminin elə bir üzvü yoxdur ki, oruc ona müsbət təsir göstərməsin.

Oruc ancaq yeyib-içməkdən uzaqlaşmaq deyil, həm də günah sayılan bütün davranışlardan özünü qorumaqdır. Oruc tutan adam halal yeməkdən iftara qədər uzaq qaldığı kimi, dilini yalandan, əllərini haram işlərdən, mədəni haram loxmadan, gözləri harama baxmaqdan, qulaqları yalan və qeybət eşitməkdən, ayaqları pis işlərin arxasınca getməkdən uzaq tutmalıdır. Oruc tutanlar düşmənçiliyə, umu-küsüyə son qoymalıdırlar. Hamı bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdır. Allah-Taala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini diktə etmişdir. Həm də ki tək Ramazan ayında deyil, başqa günlərdə də bunlara diqqət yetirilməlidir.

Bütün bunlardan sonra belə qənaətə gəlirəm ki, müsəlmanlar üçün Allah-Təalanın buyurduqlarını başdan-başa özünə sığdıra bilən Ramazan ayı, həqiqətən də, "Qurani-Kərim"in baharı, həm də heç zaman solmayan bahardır.

***Mətanət Məmmədova***

# "COP29-un Bakıda keçirilməsi "yaşıl enerji"yə keçid üçün yeni imkanlar yaradır"

***"İqlim dəyişiklikləri, atmosferin çirklənməsi nəticəsində hər il dünyada 13 milyondan çox insan həlak olur. Ona görə də "yaşıl enerji"yə keçid həm ekoloji, həm iqtisadi, həm də insanların sağlamlığı baxımdan çox əhəmiyyətlidir.***



MÜNASİBƏT

Bu, Azərbaycan dövlətinin enerji siyasətinin əsas istiqamətlərindən biri sayılır. Bu gün ölkədə bu sahədə həyata keçirilən tədbirlər demək olar ki, öz müsbət nəticələrini verməkdədir. "Yaşıl enerji" sahəsində Azərbaycan beynəlxalq təşkilatlar, müxtəlif dünya dövlətləri və sərmayədarlarla fəal əməkdaşlıq etməkdədir. Məlum olduğu kimi, ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasına ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması üzrə beynəlxalq səylərə qoşulub. Bunun üçün müəyyən layihələr hazırlanıb və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bu məsələlərin həyata keçirilməsi nəzərdə tutulub". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Tahir Rzayev deyib. Onun sözlərinə görə, Azərbaycan 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35%, 2050-ci ilə qədər isə 40% azaltmağı nəzərdə tutub: "Əlbəttə ki, bunun üçün ölkədə imkanlar var. Artıq Azərbaycan enerjini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Sözsüz ki, "yaşıl enerji"yə keçid həm ölkəmizə müəyyən maliyyə vəsaitlərinin gətirilməsini, həm də insanların sağlamlığının qorunmasını təmin edəcək. Bu istiqamətdə həyata keçirilən tədbirlər gələcəyə, insanların rifahına və enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlib. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Bakıda keçirilməsi göstərir ki, Azərbaycan "yaşıl enerji"dən istifadə etmək məqsədlərini ali dəyər kimi qarşıya qoyub və bunun üçün ən mötəbər tədbirlərin keçirilməsini belə hədəfləyib".



Deputat sözlərinə davam edərək bildirib ki, COP29-un Azərbaycanda keçirilməsi həm "yaşıl enerji"yə keçid üçün yeni imkanlar yaradır, həm də ölkəmizin beynəlxalq aləmdə olan nüfuzunu göstərir: "Çünki bu tədbir ən mühüm beynəlxalq tədbirlərdən biridir. Bu gün Azərbaycan Prezidenti bütün fəaliyyətində insan amilini əsas məqsəd kimi qarşıya qoyur. Belə tədbirlərin və "yaşıl enerji"yə keçidin məqsədi də məhz Azərbaycan vətəndaşının sağlamlığının qorunmasına, həm də dövlətimizin dünyada söz sahibi olmasına göstərilən səydir. Sözsüz ki bir çox tədbirlər kimi COP29-u da Azərbaycan uğurla həyata keçirəcək və özünün yüksək təşkilatçılıq bacarığını, insanların sağlamlığına göstərdiyi qayğını dünyaya bir daha nümayiş etdirəcək".

***Ləman Sərraf***









# "Molla Nəsrəddin»i zəmanə özü yaratdı

***Bu gün müsəlman Şərqində ilk satirik jurnal olan "Molla Nəsrəddin"in nəşrə başladığı gündür. Azərbaycan milli mətbuatında satirik üslubda çapdan çıxan jurnal sonralar milli mətbuatımızda bu janrda olan mətbu nümunələri üzə çıxmasına şərait yaratdı. Jurnal ədəbi nümunələr məcmusu olmaqla yanaşı, ictimai mühitdə böyük əks-sədaya səbəb oldu. Bu jurnal milli mətbuatımızda bir bünövrə oldğundan davamçıları məhz bu ideoloji xətlə yaradıcılıq yollarını davam etdirdilər.***

Mollanəsrəddinçilər milli ruhu hakim tutaraq, ölkənin ictimai- siyasi mədəni həyatında baş verənləri dərc etdirməklə, Azərbaycan və Şərq mətbuatında sözün düzünü deməyi bacardılar və bu yolun yolçusutək zaman-zaman silahdaşlarını ətraflarına toplayıb mübarizdə bir nöqtədə birləşdilər. Belə bir hünər sahibi olan qələm sahibləri zamanın mühakiməsində özlərinin əqidə və məsləklərinə doğru hərəkət edib, Azərbaycan xalqını düçar olduqları bəladan xilas etməyə çalışırdılar. Mübarizədə möhkəm olan silahdaşların hər birinin, demək olar ki, milli mətbuatdan imzaları tanış olan şəxslər idi. Mollanəsrəddinçiləri hansısa bir qüvvə məsləklərindən döndərə bilmədi. Bu yol həqiqət yolu idi. Bu yol mübarizələrlə zəngin olan bir yol idi. Cəsarət, inam, milli heysiyyət hər şeydən üstün olduğundan silahdaşlar daha sıx olaraq birləşməyi bacardılar. "Molla Nəsrəddin", sözün böyük mənasında, ənənə yarada bildi. Bildiyimiz kimi, "Molla Nəsrəddin"in yarandığı dövr hədsiz gərginliklərlə dolu idi. Rusiyada inqilabi ideyalar geniş vüsət almışdı, İranda azadlıq hərəkatı alovlanırdı. Avropada yeni mütərəqqi fikirlər daha da alışır, onun təsiri bütün Şərqə yayılırdı. Belə bir zamanda Mirzə Cəlil çoxillik cəhdlərdən sonra "Molla Nəsrəddin" adlı məcmuənin yaranması yönündə istəklərini məharətlə gerçəkləşdirdi.

## İNSANLARI GÜLDÜRƏ-GÜLDÜRƏ DÜŞÜNDÜRDÜ

Jurnalın ad seçimi maraqlı bir təsadüflə əlaqədardır. Bəs Mola Nəsrəddin kim olub, onun belə məşhurlaşmasına səbəb nə idi? İlk olaraq, qeyd edim ki, Molla Nəsrəddin müxtəlif türk ellərində müxtəlif adlarla məşhur olmuşdur. Türkiyədə hələ qədim dövrlərdən başlayaraq, elm və maarif adamına hörmət əlaməti olaraq, ona Xoca deyə müraciət edirdilər. Bu ənənə indi də qalmaqdadır. 1935-ci ildə bütün titul və dərəcələr - bəy, əfəndi, paşa, xoca, ağa və s. ləğv edildi. Kişilər üçün müraciət forması "bəy", qadınlar üçün "bayan" sözləri müəyyənləşdirildi. Lakin "xoca" sözü Türkiyədə indi də hörmət ifadəsi olaraq müəllim və alimlər arasında geniş surətdə işlənməkdədir. Əfəndi isə hələ yunanlardan götürülmüş savadlı adamlara müraciət forması kimi saxlanılmaqdadır. Taciklər arasında əfəndi, özbəklərdə isə əpəndi kimi işlədilir. Orta Asiyada Nəsrəddin əfəndi kimi tanınır. Azərbaycanda isə molla ləqəbi ilə məşhur olmuşdur. Nəsrəddin tarixən müdriklik anlayışı tək qavranıldığından, onun el arasında hər bir fikri dildən-dilə gəzərək, məşhurlaşmışdır. Onun haqqında ilk nümunə XVI əsrin əvvəllərində Türkiyədə yazıçı və şair Lamii tərəfindən tərtib olunmuşdur. XIX əsrdən başlayaraq Molla Nəsrəddin lətifələrinin çap olunmasına başlanılmışdır.

Məhz belə bir nüfuz qazanmış şəxsin adının əbədiləşdirilməsi məqsədi ilə çap olunmağa başladı. O, insanları güldürə-güldürə düşünməyə məcbur edir. Bu, həm də həqiqətlərin asan bir yolla qavranılması idi. "Molla Nəsrəddin" jurnalı tez bir zamanda tanındı. Buna səbəb tutduğu yol və əqidəsi idi.

## "SÖZÜNÜ O KƏSLƏRƏ DE Kİ, SƏNƏ QULAQ VERMİRLƏR"

Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən birinə çevrilən "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin işıq üzü görməsi böyük əks-səda doğurdu. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmasına icazə istədi. Bu təşəbbüsü o zaman Qafqazda Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri bəyəndi, bu barədə xəbərlər yaydılar. "İrşad", "Həyat", "Tərcüman", "Vozrojdeniye", "Kaspi", "Baku", "Novoye obozreniye", "Kavkazskoye utro", "Na povorote" qəzetləri "Molla Nəsrəddin"i çıxarmaq təşəbbüsü barədə oxuculara xəbər verdilər.1906-cı ilin 7 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın "Molla Nəsrəddin"in təməl daşı qoyuldu. Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrildi. Həcmi kiçik formatda olan "Molla Nəsrəddin"in çapı həftədə bir dəfə nəzərdə tutulmuşdur. Proqram səciyyəvi baş məqalədə isə Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".

## "MOLLA NƏSRƏDDİN" TƏK BİR NƏFƏR MÜƏLLİFİN ƏSƏRİ DEYİL

"Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Mirzə Cəlil "Molla Nəsrəddin"də əsas sima, məsləhətçi və böyük yoldaş idi. Ədib özü bu barədə yazır: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam".Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis 7 aprel" sərlövhəli baş məqaləsi, "Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu. Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsindən çox keçmədi ki, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər. Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzularla çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur.

Ardı Səh. 12

TƏHLİL

# "Molla Nəsrəddin»i zəmanə özü yaratdı

Əvvəli-Səh-12

Məhəmmədhəsən əmilərin, novruzəliləri, zeynəblərin həyat hekayəsini yazan Cəlil Məmmədquluzadəni baş verən hadisələr rahat yaşamağa qoymurdu. Həqiqətən də Cəlilin qəlbində vətən sevgisi sonsuz idi. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, özünəməxsus olan məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.

### SƏPİLƏN TOXUM ÖZ BƏHRƏSİNİ VERDİ

Əlbəttə ki, satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. «Mola Nəsrdddin»i zəmanə özü yaratdı" – deyə Cəlil Məmmədquluzadə yazırdı. Molla Nəsrəddin" məcmuəsi obrazlı desək, xalq ruhundan, folklorundan bəhrələnməklə öz fikrini oxuculara çox gözəl, məharətlə çatdırmaq bacarığına malik idi. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi. İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maariflənməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. Azərbaycan ictimai mühitində böyük rol oynayan "Molla Nəsrəddin" ilk sayından başlayaraq düzü-düz, əyrini-əyri deməyi özünə yol seçmişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.

### DEMOKRATİZM VƏ AZADLIQ İDEYALARI JURNALA BEYNƏLXALQ NÜFUZ QAZANDIRDI

Xalqın ziyalı sözünə, ziyalı fikrinə ehtiyacı yarandığı bir zamanda satirik qələmlə onun tələbatını ödəmək əsl hünər və vətənpərvərlik idi. Müsəlman dünyasını bürüyən geriliyi xalqın avamlığında görən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının çapının nə dərəcədə əhəmiyyətə malik olduğunu dərk edirdi. O, ziyalıları yalnız əqidəyə, məsləkə xidmət edib, tutduğu yolda qələmi silaha çevirərək, dövrün haqsızlıqlarını açıq-aşkar ifşa edərək, hakim qüvvələri qamçılamağa, öldürücü satira atəşinə tutmağa çağırırdı. Onların yaradıcılığının qayəsi insan ideologiyasını dəyişdirib, dövrün tələbləri səviyyəsində görmək idi. Belə ki, qarşıya qoyulan məqsəd, önəmli məsələ cəmiyyətdəki ziddiyyətlərin yaranma səbəbini göstərmək, xalqı ictimai fəaliyyətə səsləndirmək, qabaqcıl ideyalar əsasında cəmiyyəti mütərəqqi ideyalara qovuşdurmaq idi. Qısa bir zaman məsafəsində, "Molla Nəsrəddin" məşhur satirik jurnal kimi tanındı. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Suri-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yəşen" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edək ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi.

### ƏDƏBİ-İCTİMAİ FİKİR İNQİLABİ VƏ DEMOKRATİK HƏRƏKATI GÜCLƏNDİRDİ

Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu.Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. "Molla Nəsrəddin" jurnalının davamçıları yetişdi. 1952-ci ildə "Kirpi" jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. "Kirpi" jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra "Kirpi"nin davamçıları "Şeytan", "Mozalan", "Karikatura", "Dəryaz" kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən bu qəzet və jurnallar "Molla Nəsrəddin" ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı.

### CƏLİL MƏMMƏDQULUZADƏ RUHU MÜASİR NƏSİLLƏ BAHƏM YAŞAYIR

Onu da vurğulayaq ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. "Molla Nəsrəddin" jurnalının davamçısı "Kirpi" olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

Bu gün "Molla Nəsrəddin" jurnalının 118 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Çətin, təqiblərə məruz bir dövrdə cəsarətli addımlar atıb, dövrün mənzərəsini satirik ruhla qələmə almaq nə qədər çətin olsa da "Mola Nəsrəddin" amalına sadiq qaldı. Bu gün isə Azərbaycanda azad söz, azad mətbuat var, açıq cəmiyyətdə yaşayırıq. Senzuranın olmadı bir zamanda qələm sahibləri fikir və düşüncələrini sərbəst şəkildə qələmə alırlar. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, onun yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə çağırır.

Sonda bu gündə «Molla Nəsirəddin»dən daha bir nümünə gətirmək yerinə düşər: "Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üzgözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza".

***Zümrüd BAYRAMOVA***

---

## "Mənzil alarkən mütləq bazar araşdırması aparılmalıdır"



EKSPERT XƏBƏRDARLIQ ETDİ

"Bir şəxs mənzil alarkən ilk növbədə həmin mənzilə baxış keçirməli, mənzilin çıxarışı ilə tanış olmalıdır. Burda isə diqqət edilməli məqam var. Mənzil alan şəxs onu çıxarış adına olan şəxsdən aldığına əmin olmalıdır, çıxarışda olan mənzil sahəsinin reallıqda olub-olmaması müəyyən edilməlidir. Çünki notariusa gedən zaman notarius mənzilin sahəsini ölçmür. Belə olan hallarda bəzən vətəndaşa hansısa böyük sahəni göstərib, satılarkən isə başqa sahə satılır. Mənzil alarkən Dövlət Reyester Xidmətindən arayış alınır. Bu arayış həmin mənzilin girovda olub-olmamasını müəyyən etmək üçündür. Amma vətəndaş hər zaman çıxarışda olan sahənin aldığı sahə ilə uyğun olub-olmamasına diqqət etməlidir". Bu sözləri SİA-ya danışan əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə deyib.

Ekspert deyib ki, digər bir məqam satılan mənzildəki insanların qeydiyyatı ilə bağlı problemlərdir: "Vətəndaş həmin mənzildə kimlərin qeydiyyatda olması ilə maraqlanmalıdır. Çünki bir çox hallarda daşınmaz əmlak alan şəxsin adına keçsə də, köhnə sahibi olanlar evdən çıxmır. Qeydiyyatla bağlı məsələlər növbəti dəfə alqı-satqı edəndə problem yaradır. Ümumiyyətlə qeydiyyatla bağlı problemlər olduğuna görə, məsələn, vətəndaş evini satarkən sənədsiz evlərə qeydiyyata düşə bilmədiyinə görə bu məsələ problemlər yaradır. Gələcəkdə də həmin vətəndaş mülkiyyət hüququnu tam bərpa etmək üçün məcbur olur ki, evdə əvvəldən qeydiyyatda olan şəxsləri məhkəməyə verərək, onların qeydiyyatını ləğv etsin. Bu da həm vaxt, həm də artıq məsrəf aparır. Mütləqdir ki, vətəndaş əvvəlki ev sahibi ilə qeydiyyatla bağlı məsələlərin necə həll olunacağı ilə bağlı danışsın. Notariusda bir ay vaxt qoyulsa da, bir çox hallarda onlar qeydiyyatdan çıxmır, bu da problemlərə səbəb olur".

Ramil Qasımzadə vurğulayıb ki, mənzil alarkən mütləq bazar araşdırması aparılmalıdır: "Yaxşı olar ki, bu zaman maklerlərin tövsiyələri iə kifayətlənməsinlər. Əmlakın qiymətləndirilməsi ilə məşğul olan şirkətlərə müraciət edib, onlardan xüsusi rəy alsalar daha yaxşı olar ki, həmin mənzilin real bazar dəyərini öyrənərlər. Diqqət edilməli məqam isə vətəndaşların aldıqları evin qiymətini notariusda düzgün qeyd etməsinin vacibliyidir. Çünki elə hallar var ki, vətəndaş 100 minə ev alırsa, ona deyir bank faizini artıq verməmək üçün məbləği daha az, məsələn 60-70 min və s. göstərək. Halbuki bu rəqəm çox kiçikdir, 0.2 faizdir. Mən isə vətəndaşlara rəqəmləri azaltmağı tövsiyə etmirəm".

***Ləman Sərraf***

---

## "Beynəlxalq qurumlar tərəfindən lazımi dəstəyi görmürük"

"Vətən müharibəsindən sonra regionda təhlükəsizlik nöqteyi-nəzərindən təhdidlərdən biri də mina terrorudur. Çünki işğal dövründə və ondan sonrakı mərhələdə Ermənistan işğal etdiyi ərazilərə milyonlarla mina basdırıb. Təkcə Vətən müharibəsindən sonra 300-ə yaxın şəxs həyatını, sağlamlığını itirib". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib. Politoloq bildirib ki, eyni zamanda qeyd etməliyik ki, Ermənistanın Azərbaycana təqdim etdiyi mina sxemləri və xəritələri qəsdən yanlış verilib. Digər tərəfdən mina terrorunun qarşısının alınması üçün Azərbaycan öz üzərinə düşən bütün vəzifələri yerinə yetirsə də, beynəlxalq qurumlar tərəfindən lazımi dəstəyi görmürük. Ölkəmizdə mina terrorunun qarşısının alınması istiqamətində bütün güclər səfərbər olunarkən, beynəlxalq donor təşkilatlarının da Azərbaycana yardımı tələb olunur. Lakin biz görürük ki, Ermənistanın gücləndirilməsi, silahlandırılması istiqamətində müvafiq təmaslar, görüşlər həyata keçirilir. 5 aprel tarixində Brüsseldə keçirilən görüş də buna bir nümunədir. Çox istərdik ki, məhz mina terrorunun qarşısı alınması üçün bu cür görüşlər, konfranslar təşkil olunsun və Azərbaycana qarşı biganə münasibət aradan qaldırılsın.Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru regionun və dünyanın ən çiçəklənən, inkişaf etmiş ərazisinə çevirməkdə prinsipialdır, əzmlidir. Mina təhdidi aradan qaldırıldıqdan sonra məhz bu məqsədlərə nail olacağıq".




***Səbinə Hüseynli***

ŞƏRH

# "Araz" supermarketin yeni "siyasəti"

***Söhbət "Araz"ın metronun "Şah İsmayıl Xətai" stansiyasının yaxınlığında yerləşən filialından gedir. Bəlkə də başqa "Araz"larda vəziyyət başqadır. Lakin bu "Araz" nə üçün düzəlmir, nə üçün öz işini qura bilmir? Nə vaxt bu marketə girirsənsə, bir yox, beş problemlə üzləşirsən. Məsələn, bunlardan biri odur ki, baxmayaraq ki, marketdə bir neçə kassa var, lakin bir kassa, təsadüf nəticəsində isə iki kassanın işlədiyini görürsən. Gərək kassanın qarşısında növbə düz qapıya çata, bəlkə onda 2-ci kassaya bir nəfər yaxınlaşa. Görünənlərdən biri də odur ki, kassanın qarşısında daim alıcıların giley ilə qarşılaşmaq mümkündür.***

Daim " yeniliklərlə" alıcıların əsəbləri ilə oynayan "Araz" market bu günlərdə isə yeni "siyasətə" başlayıb. Belə ki, artıq bir neçə dəfədir ki, alınan məhsulların çekləri elə bil yağışlardan, sulardan keçib, sonra da günün qarşısında qurudulub. Bu çeklərdən heç nə oxunmur. Elə bu səbəbdən də QR kodu telefonlarda açılmır. "Araz"ın yeni "siyasəti" nəticəsində insanlar aldığı məhsulun ƏDV-ni geri ala bilmirlər.

Kassirlər kassa aparatının nasaz olduğunu, yenisinin alınacağını söyləyir. Alıcılar isə öz etirazlarını bildirir, bunun onların problemi olmadığını vurğulay. Belə olan halda isə daşdan səs çıxır, "Araz"dakılardan yox.

Belə də dərd olar? Axı nə üçün "Araz"a hər girdiyimizdə problemlərlə üzləşməliyik. Nədir camaatın günahı ki, "Araz"da hər dəfə başına belə müsibətlər gəlir? Axı problem bir dəfə olar, deyərsən ki, iş olan yerdə çətinlik də ola bilər. Axı gün ərzində milyonlarla qazanc əldə edən belə böyük marketlər şəbəkəsinin bir filialında nə üçün bu cür problemlərlə üzləşməliyik? Kassa aparatının nasaz olmasının alıcıya dəxli varmı? Alıcı nə etsin ki, sizin aparatınız xarabdır?

Gəlin görək, alıcı sizdən aldığı məhsulu daşımaq üçün bir salafan paket istəsə, onu pulsuz verərsinizmi ona? Bəs belə isə o, haqqı olan ƏDV-ni nə üçün sizin xarab kassa aparatınız hesabına itirməlidir?

Market yaxşı yerdə, yeni məhəllə sakinlərinin ən çox keçdiyi yol üzərində yerləşir. İnsanlar da nə etsin, yollarının üzərində olduğu üçün keçib ehtiyacları olan ərzağı buradan almaq istəyir. Lakin hər dəfə bu marketdən



problem yaşamadan çıxmaq mümkün deyil. Odur ki, sual olunur: "Araz"ın dərdi nədir? Çatışmayanı nədir, ki, işini qura bilmir? Bir gün yanlış endirim, bir gün endirimli qiymətə olan məhsulun əvvəlki qiymətə satışı, bir gün kassa problemi, bir gün kartla ödəmədə problem, indi də kassa aparatı problemi.

Görəsən "Araz" günlərdir, davam edən bu problemin həlli barədə necə, heç fikirləşirmi? Yoxsa kassa aparatının nasazlığı "Araz"ın yeni "siyasəti"dir... Belə isə bu siyasət ona uğurdan çox uğursuzluq gətirir. Belə-belə bir də görəcək ki, alıcılarını itirəitirə gedir.

Axı "Araz"dan da çox günah bizdədir. Biz istəsək, bizə belə saygısızlıqla yanaşan marketlərin bağlanmasına səbəb ola bilərik. Məsələn, Almaniyanın şəhərlərindən birində marketdən ərzaq alan alıcı onun istehsal tarixində yanlışlıq hiss edib və bunu sosial şəbəkələrdə paylaşıb. Həmin gündən o marketə bir nəfər belə ayağını qoymayıb ki, bəs market bizim sağlamlığımızla oynayır. Sonralar həmin market nə edibsə də, nüfuzunu bərpa edə bilməyib.

Hazırda alıcılarının tamamilə əsəbləri ilə oynayan və onların sağlamlığına zərər vuran "Araz" və ümumilikdə bu kimi səhvlərə yol verən digər marketlərin fəaliyyətində insanların özü günahkardır. Hansı ki, onların bir günün deyil, bir saatın içərisində bağlanması alıcıların əlindədir.

Düşünürəm ki, hələlik nöqsanlar burulğanından yaxa qurtara bilməyən haqqında danışdığımız "Araz" bütün bunlara diqqət yetirməlidir. Eləcə də digər marketlər də unutmamalıdır ki, onların fəaliyyəti birbaşa alıcılarla bağlıdır. Alıcılar bircə dəfə Almaniya variantından istifadə etsə, qapılarını qıfıllayıb getməli olacaqlar.

***Mətanət Məmmədova***



Elçin Bayramlı

## Acından ölən milyonlar: dünyamız bizi yedirə bilmir, yoxsa?

***BMT-nin Dünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən, bu gün dünyada 850 milyon insan aclıq çəkir. Bəzi təşkilatlar isə bu rəqəmin 1 milyard olduğunu deyirlər. Daha 3 milyard insan isə yetərsiz və keyfiyyətsiz qidalanır. Bunun səbəbi sadəcə tamahkarlıq, israfçılıq və sərvətlərin ədalətsiz bölüşdürülməsidir. Çünki, dünyanın hazırki ərzaq istehsalı düzgün istifadə olunacağı və ədalətli bölüşdürüləcəyi təqdirdə müxtəlif qiymətləndirmələrə görə 13-15 milyard insanı təmin edəcək gücdədir.***

Hər il dünya üzrə 4 milyard tonluq ərzaq istehsal olunur. İstehsala aid edilməyən və statistikaya düşməyən (çöldən, meşədən yığılan bitkilər, çaydan, göldən tutulan balıq, ovdan əldə olunan heyvanlar və s) ərzaq məhsullarını də 2 milyard ton nəzərə alsaq, qlobal ərzaq əldə edilməsinin faktiki həcmi ən pis halda 6 milyard tondur. Yəni, adambaşına illik ərzaq istehsalı 750 kq-dan çoxdur. Bu isə insanın illik qida qəbulu normasından azı 2 dəfə yuxarıdır. Yəni, hazırkı faktiki ərzaq istehsalı normal istifadə olunduğu və düzgün bölüşdüyüldüyü halda 15 milyard adamı təmin edəcək gücdə olduğu halda dünyada 1 milyard ac var, daha 2 milyard isə yoxsulluq içində yaşayır.

Qlobal ərzaq istehsalının 1/3-i - 1 trilyon dollar dəyərində 1,3 milyard ton qida məhsulu zibilliyə atılır. İstehsal edilmiş meyvə-tərəvəzin 45%-i, balıq məhsullarının 35%-ini, çörəyin 30%-i, ət və süd məhsullarının 20%-i zibilə atılır. Bu 3 km diametri və 2500 m hündürlüyü olan "israf dağı" deməkdir.

Dünya nemətlərinin 80 faizlik hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Hazırda dünya əhalisinin kiçik bir hissəsi resursların əksəriyyətini israf edərək istehlak edir.

ABŞ-da hər il 155 milyard dollar dəyərində 100 milyon tondan çox ərzaq zibilliyə atılır. Yəni Afrika qitəsinin illik idxalının 4 misli qədər qida məhsulu təkcə Amerika xalqı tərəfindən məhv edilir.

Avropa İttifaqında isə ildə 140 milyard avro dəyərindəki 90 milyon ton qida zibilliyə atılır. Adambaşına düşən qida tullantıları 2021-ci ildə 131 kiloqrama çatıb, halbuki Afrikada adambaşına illik qida qəbulu həcmi 10 kq təşkil edir. Təkcə İngiltərədə ildə 17 milyon ton yemək israf edilir. Hesablamalara görə, təkcə ABŞ və Böyük Britaniyada bəyənilməyib zibilliyə atılan qidalarla 1 milyard insanı aclıqdan xilas etmək olar. Bundan başqa, varlı ölkələrdə insanların qəbul etdiyi gündəlik qida həcmi 50-100 il əvvəlki dövrə nisbətən çəki etibarilə 2 dəfə artmışdır. Yəni, elmi şəkildə təsdiq olunan və bioloji olaraq olaraq insanın gündəlik qida norması 700-800 qram olmalı olduğu halda, hazırda bu rəqəm ortalama olaraq 1,5 kq-dan yuxarıdır. Bu deməkdir ki, bir çox insanlar 2 nəfərin gündəlik payını istehlak etmiş olur.

Beləliklə, bütün bu faktları nəzərə aldıqda aydın olur ki, əslində, normal insan cəmiyyətinin yaradılacağı bir halda hazırki istehsal həcmi belə ən pis halda indikindən 2 dəfə çox insanı təmin edəcək qədərdir.

Dünyanın potensial ərzaq istehsalı isə ən azı 50-60 milyard insanı tam təmin etmək gücündədir. Okeanların da qida resurslarından tam istifadə edildiyi, həmçinin istehsal və emal zamanı 30-40 faizə çatan itkilərin, 20 faizə çatan israfçılığın qarşısı alındığı təqdirdə bu rəqəmin 80-100 milyarda qədər yüksələ biləcəyini bir çox nüfuzlu alimlər qeyd edir.

Deməк, aclıq və yoxsulluqla bağlı dünyamızdakı problemlərin səbəbi heç də qlobalistlərin, transhumanistlərin iddia etdiyi kimi insan sayının çoxluğunda deyil, əksinə planetimizin ölçüləri ilə müqayisədə hazırki insan sayı xeyli azdır. İnsanlar dünyanın quru ərazisinin heç 10 faizində belə məskunlaşmayıb. Problem ədalətsiz sistem, israfçılıq və başqalarının payını mənimsəməklə bağlıdır.

Elə bir qlobal sistem qurulub ki, 3-cü dünya ölkələrinin sərvətləri istismar olunub qərb ölkələrinə daşınır. Nəticədə ən böyük sərvətlərə malik ölkələrin əhalisi yoxsulluq içində yaşayır, istismarçı ölkələr isə zənginlik içində. Qlobal bərabərsizliyin səviyyəsi getdikcə böyüyür.

Planetimizin nəhəng təbii resursları olduğu halda milyonlarla insanın acından ölməsi bəşəriyyətin ən böyük rəzalətidir. Bu artıq insan cəmiyyəti deyil, ibtidai təfəkkürlü qlobal canlı kütləsidir.

# Hava dəyişkənliyi insana necə təsir göstərir?

"Mart ayının yaxınlaşması ilə artıq daha bir mövsüm dəyişiminin astanasındayıq. Hər gün havanın bir üzünü görürük. Bir gün əsl bahar havası, günəş içimizi sidir səhəri gün yağış,şaxta,külək və qar ilə qarşılaşırıq. Təbii ki buda insan psixologiyasına təsirsiz ötüşmür". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fəridə Şərifova bildirib. Psixoloq bildirib ki, havanın qəfil dəyişməsi insanın əhval-ruhiyyəsinə təsir edərək əsəbilik, narahatlıq və həssaslığa səbəb ola bilir. Mənfi hava dəyişikliyi, yəni daha az günəşli, yağışlı mühitlər depressiyaya səbəb ola bilər: "Araşdırmalardan məlumdur ki, havanın temperaturu və gün işığı insan psixologiyasına təsir edir. Bəs hava ilə insan psixologiyası arasında hansı əlaqə var?

Havanın qəfil dəyişməsi nəticəsində biz bioloji və psixoloji dəyişikliklər yaşayırıq. Qış aylarında daha çox yorğun, enerjisi az olan və yüksək kalorili qidalar qəbul etməyə üstünlük verdiyimiz halda, yaz-yay aylarında daha canlı, daha enerjili və daha az kalorili qidalar qəbul etməyə üstünlük veririk. Havanın qəfil dəyişməsi nəticəsində: depressiya, həddindən artıq emosionallıq, həssaslıq və ya konfliktə meyl, yorğunluq, oynaq və baş ağrıları, yuxuya getmədə problemlər və ya həddindən artıq yatmaq, qida qəbulunda dəyişiklik baş verə bilər. Məlumdur ki, insanlar yağışlı, buludlu havalarda daha introvert və pessimist əhvalruhiyyədə, həddindən artıq isti havalarda isə səbirsiz, süst və yorğun əhval-ruhiyyədədirlər".

F.Şərifova qeyd edib ki, günəşli, açıq, təmiz hava insan psixologiyasına müsbət təsir göstərir: "Bəs bunun səbəbi nədir? Tədqiqatlar göstərir ki, günəş işığı bədənimizdə serotonini artırır. Serotonin isə psixologiyamızı tarazlıqda saxlayan, canlılıq, xoşbəxtlik hissi verən, yuxu dövrümüzü tənzimləməyə kömək edən, diqqətimizi cəmləməyə dəstək olan, beyindəki hüceyrələr arasında əlaqəni təmin edən kimyəvi maddədir. Serotonin çatışmazlığında yorğun və utancaq əhval-ruhiyyə, artan narahatlıq, bədbəxtlik, yuxuya getmək də çətinlik və ya yuxuya keçid kimi vəziyyətlər meydana gələ bilər. Bu səbəbdən serotonin səviyyəsinin psixoloji və fizioloji sağlamlıq baxımından tarazlıqda olması vacibdir. Ona görə də dəyişkən havaların bizlərə mənfi təsirini azalatmaq üçün serotonin səviyyəsini nizamda saxlamaq məsləhət görülür. Bu səviyyəni tarazlıqda saxlamaq üçün: idman etmək, gün işığında vaxt keçirmək, stresli vəziyyətlərdən və hadisələrdən mümkün qədər uzaq olmaq, triptofan, B6, B9, B12 vitaminləri ilə zəngin qidalar qəbul etmək, spirt və kofein istehlakını minimuma endirmək kömək edəcəkdir".



PSİXOLOQ DANIŞDI

***Ləman Sərraf***

***Qərbə qaçan Ermənistanla onu saxlamağa çalışan Rusiya arasında münasibətlər sürətlə pisləşməkdə davam edir. Eyni zamanda, erməni tərəfi belə bir prinsipdən çıxış edir: xəyanətə haqq qazandırmağın ən yaxşı yolu hücuma keçməkdir. Və bu dəfə bu hiyləgər texnikadan Ermənistanın baş naziri Paşinyan istifadə edib.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# “İrəvan çaşsa, Azərbaycanın hərbi qüdrəti Ermənistanın üzərindən keçəcək”- Rusiyalı ekspertlər

*“Ermənistan tərəfindən hər hansı təxribat cəhdləri olarsa, onlar Azərbaycandan qəti cavab alacaqlar və Rusiya sadəcə olaraq Yerevanın bütün yardım xahişlərinə məhəl qoymayacaq”*








Ötən gün o, bəyanat verdi ki, Rusiyanın Ermənistan qarşısında yerinə yetirmədiyi öhdəlikləri var. “Rusiyalı tərəfdaşlarımız bizə heç nə göstərə və deyə bilməzlər: “Burada sizin öhdəlikləriniz var idi və siz onları yerinə yetirmədiniz”. Biz bunu göstərə bilərik və belə edirik. Biz haqlı suallar qaldırırıq və onlara dolğun cavab gözləyirik”,- Paşinyan Brüsseldə keçiriləcək görüşdən ruhlanaraq bildirib.

Rusiya ilə Ermənistanın münasibətlərində başqa nə gözləmək olar? Sabah Ermənistan nəhayət ki, Qərbdən verilən vədlər müqabilində keçmiş müttəfiqini satarsa, Rusiyanın cavabı nə ola bilər? Rusiyalı politoloqlar “Caliber” analitik mərkəzinə şərhlərində bu suallara cavab veriblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.





## “Rusiya Ermənistana kömək etmək niyyətində deyil”

MDB ölkələri üzrə ekspert, Avrasiya Problemlərinin Monitorinqi Mərkəzinin direktoru Aslan Rubayevin sözlərinə görə, milçəkləri kotletlərdən dərhal ayırmaq lazımdır.

“Birincisi, Qarabağ 30 il Ermənistanın işğalı altında olan Azərbaycanın ərazisidir. Azərbaycan sadəcə olaraq öz tarixi ərazisini geri qaytardı. Rusiya heç vaxt Qarabağa nəzarət etməyib, ora Ermənistanın işğalı altında olub.

İkincisi, Moskva Rusiya Federasiyasının tərkibində olmayan ərazini müdafiə edə bilməz, üstəlik bu ərazi beynəlxalq hüquqa zidd olaraq ələ keçirilmişdi. Ona görə də Paşinyanın bu mövzuda ritorikası tamamilə anlaşılmazdır, çünki tamamilə aydındır ki, İrəvan indi bütün qərarları Qərb strukturlarının diktəsi ilə qəbul edir. Paşinyanın demək olar ki, atdığı hər bir addım Qərbdən idarə olunur”,- politoloq vurğulayıb.

Onun fikrincə, problem ondadır ki, Ermənistanın özü nə istədiyini bilmir, amma fakt odur ki, İrəvan regiondan kənar oyunçuların- Fransa və ABŞ-ın iştirakı ilə regionda böyük yanğın yandırmağa hazırlaşır.

“Qlobal beynəlxalq münaqişə yarana bilərdi və Allaha şükürlər olsun ki, Azərbaycan, Rusiya və Türkiyə bu fəlakətin qarşısını almaq üçün kifayət qədər müdrik olublar. İndi də Bakı, Ankara və Moskva dağıdıcı planlara müqavimət göstərirlər”,- Rubayev qeyd edib. Onun sözlərinə görə, Paşinyan bu gün yenidən münaqişə platosuna çatmaq istəyir, lakin buna nail olmayacaq.

“Ermənistan tərəfindən hər hansı təxribat cəhdləri olarsa, onlar Azərbaycandan qəti cavab alacaqlar və Rusiya sadəcə olaraq Yerevanın bütün yardım xahişlərinə məhəl qoymayacaq. Onda Ermənistan Azərbaycanla üz-üzə gələcək və Azərbaycanın hərbi gücü Ermənistanın üzərindən keçəcək. Paşinyan bu gün sadəcə olaraq riskləri qiymətləndirmir. Rusiya Ermənistana kömək etmək niyyətində deyil”, - Rubayev əmindir.



## “Ermənistan suverenliyini itirə bilər”

Rusiyalı politoloq Renat Savinin fikrincə, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İrəvanın hər bir yeni ixtirasını şərh edərkən bildirdi ki, İrəvan ironik intonasiyalardan əl çəkməsə, Rusiyaya qarşı əsassız ittihamlar irəli sürməyi və erməni yalanlarının axınını dayandırmasa, Moskvanın səbri açıq-aşkar tükənəcək.

“Rusiya Xarici İşlər Nazirliyinin sərt notaları açıq şəkildə göstərir ki, Moskva artıq İrəvana güzəştə getmək niyyətində deyil və çox qətiyyətli addımlara hazırdır. Əgər Ermənistan sakitləşməsə və Rusiyanın maraqlarına xəyanət etsə, onu çox acınacaqlı nəticələr gözləyir, o cümlədən sabah itirəcəyi suverenliyini geri qazanmaq üçün çox gec olacaq.

Məsələ burasındadır ki, Paşinyan hələ ki, qəti və dönməz şəkildə taleyin mərhəmətinə buraxılan vəziyyətə düşməyib. Qərbdəki ekspertlər onu əmin edirlər ki, Moskva münasibətlərin tam kəsilməsi ilə razılaşmayacaq və İrəvan gözəl şəkildə xahiş etsə, Paşinyanın müraciətlərinə müsbət cavab verəcək. Amma bu, belə deyil, mən əminəm ki, Rusiya İrəvana təzyiq göstərmək üçün artıq fövqəladə tədbirlərin siyahısını hazırlayıb və sadəcə, onların həyata keçirilməsi anını gözləyir. Paşinyan psixoloji reformasiya vəziyyətindədir, Qərbdən gələn dostlar onu heç bir təhlükənin olmadığına inandırırlar. Reallığa qayıdıb Azərbaycana və Rusiyaya edilən və deyilən hər şeyə görə cavab vermək daha dəhşətli olacaq”, - deyə R.Savin yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
7 aprel
2024-cü il

# Distant təhsil gələcəyimizi necə qaranti edir?



***Məsafəli təhsil (Distant) proqramı, təhsil müəssisələrinin, şagirdlərin tək başına təhsili reallaşdırmasına kömək etmək üçün müəyyən bir nizamda hazırladıqları dərs proqramı ilə həyata keçirilən işə verilən addır. Bu sistemdən istifadə etmək istəyən tələbələr faks, poçt və ya e-poçt kimi üsullarla şagirdlərə, ixtisaslı bir müəllim tərəfindən hazırlanan dərslə əlaqədar tapşırıq mövzuları verilir. Daha sonra tapşırıqlar və sınaqlarla bağlı qiymətləndirmələr edilir.***

Müəllim və tələbənin eyni məkanda olma məcburiliyini ortadan qaldıran sistem Distant Təhsil Sistemidir. Bu təhsil sistemi inkişaf edən texnologiya ilə birlikdə müvəffəqiyyət nisbəti hər keçən gün artan bir təhsil sistemidir. Məsafəli təhsil tələbə ilə müəllimin fiziki olaraq eyni bir mühitdə olmamasını təşkil edən texnologiyadır. Bu sistem təhsil texnologiyası tərəfindən araşdırılan bir fenomendir və bu sahədə təhsil elminə verdiyi ən böyük töhfədir. Bir çox tələbələr işin çoxluğu, ailə öhdəlikləri və ya digər təzyiqlər səbəində beynəlxalq təhsil üçün xaricə getmək mümkün deyil. Ancaq distant təhsil bütün bu mümkünsüzlüklərin üstündən xətt çəkir.

Distant Təhsil və ya Onlayn (online) təhsil indi ən önəmli təhsil metoduna çevrilməktədir. Çünki dünyanı öz təsir altına alan koronavirus distant təhsili ən populyar mövzulara çevirdi. Distant təhsil gələcəyimizi necə qaranti edir?

SİA mövzu ilə bağlı təhsil eksperti Elnur Aydının fikirlərini öyrənib. O bildirib ki, məktəbəqədər, ibtidai və ümumi orta təhsil müəssisələrində tədrisin onlayn formada keçirilməsi arzuolunan deyil: ”Bu təhsil səviyyələrində tədrisin əyani formada keçirilməsi zəruridir. Təbii ki, əyani formada tədrisi hər hansı bir səbəbdən qura bilməriksə, o zaman onlayn platformalarda məsafədən təhsilin qurulmasına hər zaman hazır olmalıyıq.

Ümumtəhsil məktəblərinin yuxarı siniflərində, orta ixtisas müəssisələrində, ali təhsil müəssisələrində tədrisin məsafədən təşkilində ciddi problem görmürəm. Tədrisin distant formada təşkilini keyfiyyətli hala gətirmək lazımdır. Bunun üçün istifadə edəcəyimiz virtual məkan keyfiyyətli təhsilə imkan verməlidir. Xüsusən də müəllimlər onlayn dərslərini bu cür platformalarda interaktiv formada təşkil etmə bacarıqlarına sahib olmalıdırlar. Bunun üçün müəllimlərin innovativ təlim texnologiyalarını yaxşı mənimsəməsi lazımdır.

Təhsilverənlər də onlayn tədrisin fəal iştirakçısı olma bacarığına sahib olmalıdır. Qeyd etdiyim işləri qura bilsək, bu halda keyfiyyətli distant tədrisin təşkilindən söhbət gedə bilər. Distant təhsil bizə məkanından və zamanından asılı olmayaraq, istənilən yaşda ömürboyu təhsil alma imkanı verir”.

**MÜNASİBƏT**

***Söylü Ağazadə***

# İlahiyyatçıdan gənc qıza - “Sənin dəstəmazın qəbul olunmayacaq”



**Türkiyənin ”ATV” kanalında Ramazan ayı boyunca yayımlanan dini verilişdə tamaşaçıların suallarını cavablandıran ilahiyyatçı Nihat Hatipoğlu süni dırnaq taxan qızlara səslənib.**

**Milli.Az bildirir ki, tamaşaçılardan birinin ”dırnaq protezim var, belə olan halda dəstəmazım qəbul olunur?” sualına ilahiyyatçı ”xeyr” deyə cavab verib.**

**”Protez dırnaq yuxarıda olduğuna görə əsl dırnağa su dəymir. Bu səbəbdən də qüsl və dəstəmazınız qəbul olunmayacaq”, - Hatipoğlu söyləyib.**


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Bəziləri pul qazanmaq üçün sağlığına zərər verməkdən çəkinmirlər”

***“İnsanlar daha tez və asan yolla arıqlamağı düşünür, sonrasını isə düşünmürlər. İndi informasiya dövrüdür və bu haqqda kifayyət qədər məlumat var. Deməк ki, bu məlumatlar kifayət etmir, bu cür halların qarşısını almaq üçün mariflәndirməni gücləndirmək lazımdır.***



Ümumiyyətlə insan orqanizması üçün ən düzgün çəki vermə üsulu balanslı formada sağlam qidalanmadır”. Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ofeliya Tahirova deyib. Dietoloq bildirib ki, bu cür qeyri-sağlam arıqlama vasitələri orqanizm üçün çox zərərli və təhlükəlidir: ”Bu cür qeyri-sağlam arıqlama vasitələri əlbəttə ki, orqanizm üçün çox zərərli və təhlükəlidir. hətta hormonal balansın pozulmasına, orqanizmdə yeni xəstəliklərin yaranmasına səbəb ola bilir və xroniki xəstəlikləri tətikləyir. Həzm sistemi orqanlarına çox mənfi təsir edir. Bəziləri isə pul qazanmaq üçün insan sağlığına zərər verməkdən çəkinmirlər. Bu cür vasitələrdən istifadə edərək çəki vermək qeyri-mümkündür. Sadəcə belə vasitələr bədəndən çox miqdarda maye atımına səbəb olur və buna görədə bu vasitələrdən çəki vermək məqsədi ilə istifadə edənlər çəki verdiklərini sanırlar. Bu cür insan sağlamlığı üçün təhlükəli vasitələr ölüm hallarına kimi gətirib çıxara bilər. Əgər həyatımız bizim üçün dəyərlidirsə demək bu kimi vasitələrdən istifadə etməməliyik”.

Dietoloq son olaraq bu vasitələrin yan təsirlərini vurğulayıb: “Bu vasitələrdən istifadə baş ağrısı, ishal, qarında kəskin ağrı, ürək bulanma , qusma kimi hallara gətirib çıxara bilər və ən əsası da bu vasitələri istifadə etdikdən sonra pasientlərin çəkiləri daha sürətlə artmağa və çox çətinliklə azalmağa başlayır”.

***Ləman Sərraf***

# ELAN

**“Mazda” markalı avtomobilin 90 SV 722 dövlət nömrə nişanı itib. Tapan şəxsin aşağıda göstərilən telefon nömrələrinə zəng etməsi xahiş olunur.**
**Əlaqə tel: 0502992555**
**0555310005**

* * *

**Fərəcova Fidan Zakir qızına Şirvan şəhər iqtisadiyyat və humanitar kollecində təhsil alması barədə verilmiş AA 106684 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**